Xalqın qəzeti!

# Xalq qəzeti

№ 222 (30916) 16 oktyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# ATƏT Azərbaycanın sülh və sabitlik məramını dəstəkləyir

## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Qəbula görə təşəkkürünü bildirən Elina Valtonen, ilk növbədə, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubbun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Stubba çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə Finlandiya Prezidentinin görüşləri, həmçinin Bakıda keçirilmiş COP29 tədbirində Finlandiyanın ən yüksək səviyyədə iştirakı məmnunluqla xatırlandı.

Elina Valtonen Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bunun ATƏT məkanında sülh və sabitliyin bərpası, həmçinin regional əməkdaşlıq baxımından önəmini qeyd etdi.

Qonaq Azərbaycan və Ermənistanın müraciəti əsasında ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların fəaliyyətinin 2025-ci il dekabrın 1-dək ləğv ediləcəyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmalar sülh gündəliyinin irəli aparılmasına şərait yaratdı.

Prezident İlham Əliyev Vaşinqtonda Ermənistanın icrası ilə bağlı üzərinə öhdəlik götürdüyü TRIPP layihəsinin regional əməkdaşlıq baxımından önəminə toxundu, onun bütün bölgə üçün faydalı olacağını dedi.

Söhbət zamanı ölkəmizlə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan–Finlandiya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***



# Müxtəlif coğrafiyaların fərqli formatlarında fəal iştirak

*Prezident İlham Əliyevin qlobal diplomatiyası və Azərbaycanın yeni geosiyasi kimliyi*



**Oktyabrın 13-də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Qahirədə keçirilən Yaxın Şərq Sülh Sammitində iştirakı Azərbaycanın qlobal çəkili aktora çevrildiyini təsdiqlədi. Sammitin fonunda ABŞ, Fransa, Rusiya və Avropa İttifaqının liderləri ilə keçirilən görüşlər Bakı diplomatiyasının çoxvektorlu xarakterini bir daha nümayiş etdirdi.**

***(ardı 4-cü səhifədə)***

# Xankəndidə Milli Şəhərsalma Forumu

*Çağdaş şəhər quruculuğunun əsas hədəfləri*



**Dünən Xankəndidə Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) birgə təşkilatçılığı ilə III Azərbaycan Milli Şəhərsalma Forumu öz işinə başlayıb. Forumda hökumət nümayəndələri ilə yanaşı, 60-dan çox ölkənin təmsilçiləri iştirak edirlər.**

***(ardı 8-ci səhifədə)***

# Əsas məsələ sülh müqaviləsinin imzalanmasıdır

*Qaluzin bunun üçün Rusiyanı platforma kimi görürsə...*



**Güman edirik, Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin fikirlərində səmimidir. Hansı fikirlərində, bu barədə söz açacağıq. Hələlik isə bildirək ki, M.Qaluzin indiyədək də Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsinin zəruriliyinə diqqət yetirib. Məsələn, o, bir müddət əvvəl “İzvestiya” qəzetinə müsahibəsində bu il iyulun 10-da Əbu-Dabidə Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasındakı görüşü şərh edərkən vurğulamışdı ki, Rusiya münaqişənin həllinə töhfə verməyə hazırdır.**

***(ardı 4-cü səhifədə)***

# Yeni sabitlik paradiqmasının konturları



Səhifə ⇨ 5

# Yelisey sarayı “Yupiter”in çöküşü

Səhifə ⇨ 5



# Hibrid müharibələr dövrünün müdafiə konsepsiyası

Səhifə ⇨ 6



# Azərbaycan sosial rifah ölkəsidir

***Son 22 ildə minimum əməkhaqqı 44,4 dəfə, pensiya isə 16 dəfə artıb***



**Ümummilli lider Heydər Əliyevin siyasi varisi və layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində son 22 ildə iqtisadi, hərbi gücünü sürətlə artıran, möhtəşəm tarixi Zəfər zirvəsinə yüksələn Azərbaycan sosial sferada da önəmli irəliləyişlərə nail olub.**

***(ardı 7-ci səhifədə)***

# Möhtəşəm uğur formulu



Səhifə ⇨ 10

# Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına

*Hörmətli Forum iştirakçıları!*

Sizi Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun açılışı münasibətilə salamlayıram. Xankəndi şəhərinə xoş gəlmisiniz.

Azərbaycanda üçüncü dəfə təşkil olunan və artıq ənənə halını almış bu tədbir şəhərsalma sahəsində milli, regional və beynəlxalq tərəfdaşları bir araya gətirərək təcrübə mübadiləsi aparmaq, yeni təşəbbüslər formalaşdırmaq və əməkdaşlığı gücləndirmək üçün mühüm platforma rolunu oynayır.

BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində keçirilən Milli Şəhərsalma Forumları Azərbaycanın bu sahədə beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlığının növbəti parlaq təzahürüdür. Builki Forumda 60-dan çox ölkədən 200-dən artıq xarici qonağın, ümumilikdə 400-ə yaxın nümayəndənin iştirakı həm ölkəmizə olan etimadın və dostluğun, həm də şəhərsalma istiqamətində ortaq məqsədlər naminə həmrəyliyimizin göstəricisidir.

Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən birini təşkil edir. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını və icra imkanlarını nümayiş etdirir.

Ötən otuz il ərzində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində şəhər və kəndlər tamamilə viran edilmiş, tarixi-mədəni irsimiz dağıdılmış, torpaqlar geniş miqyasda mina çirklənməsinə məruz qalmış, bir milyondan artıq azərbaycanlı öz yurd-yuvasından didərgin salınmışdır. 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər sayəsində həmin ərazilərin işğaldan azad edilməsi ölkəmiz üçün bərpa, yenidənqurma və dirçəliş dövrünün əsasını qoydu.

Bu gün Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin Baş planları artıq təsdiqlənib. İşğaldan azad olunmuş 6 şəhər, 2 qəsəbə və 20 kəndə insanlar geri qayıdaraq məskunlaşıb.

Müasir şəhərsalma prinsiplərinin tətbiqi ilə Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı infrastrukturunun qurulması, yaşayış məntəqələrinin yenidən salınması və əhalinin qayıdışı üçün zəruri şəraitin yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Burada son dörd il ərzində 3 yeni beynəlxalq hava limanı, avtomobil və magistral yolları, yeni dəmir yolu infrastrukturu inşa olunub, həmçinin yaşayış evləri, səhiyyə müəssisələri, təhsil ocaqları və digər sosial infrastrukturun tikintisi davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesində enerji infrastrukturunun yenidən qurulmasına və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi önəm verilir. “Yaşıl enerji" zonası elan edilmiş və 10 min meqavat yaşıl enerji üzrə texniki potensiala malik Qarabağ və Şərqi Zəngəzurda Günəş və külək enerjisi layihələri sürətlə həyata keçirilir. Burada “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Regionda iqtisadi inkişafın və məşğulluğun təmin edilməsi məqsədilə sənaye parkları, iqtisadi zonalar yaradılır. Bütün bunlar yerli istehsal imkanlarının genişləndirilməsi və yeni iş yerlərinin açılması ilə yaşayış məntəqələrinin dayanıqlı inkişafına töhfə verir. Eyni zamanda salınan yeni yol infrastrukturu sayəsində Qarabağ və Şərqi Zəngəzurun Bakı və ölkənin digər əraziləri ilə birbaşa əlaqələndirilməsi bu regionların sürətli iqtisadi və sosial inkişafına xidmət edir. Bu gün “Böyük Qayıdış” Proqramı çərçivəsində artıq 60 minə yaxın insan bu ərazilərdə yaşayır, işləyir və təhsil alır.

Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun Xankəndi şəhərində keçirilməsi xüsusi məna daşıyır. Uzun illər işğal altında qalmış bu şəhər bu gün sülhün, bərpanın və dirçəlişin rəmzidir. Xankəndidə icra olunan infrastruktur layihələri şəhərin müasir, ağıllı və innovativ şəhər konsepsiyasına uyğun inkişafını təmin edir.

Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirilən quruculuq prosesi təkcə şəhərsalma və infrastrukturun inkişafı deyil, regionda uzunmüddətli sülh və əməkdaşlığın qurulması baxımından xüsusi əhəmiyyət daşıyır. Həyata keçirilən məqsədyönlü layihələr, qurulan yeni əməkdaşlıqlar və formalaşan iqtisadi mühit yerli əhali üçün dayanıqlı yaşam imkanları yaradır və şəhərlərin dayanıqlı inkişafına xidmət edir.

Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma sahəsində qlobal çağırışların həllində və innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT-nin Məskunlaşma Proqramı ilə birgə həyata keçirilən təşəbbüslər xüsusi önəm daşıyır.

2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir. Bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcəkdir.

Bugünkü Forum 13-cü Ümumdünya Şəhərsalma Forumuna gedən yolda mühüm mərhələdir. Əminəm ki, burada aparılan müzakirələr şəhərlərin planlaşdırılması, bərpası və davamlı inkişafı sahəsində strateji təşəbbüslərin həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edəcək, gələcək nəsillər üçün daha yaşıl, inklüziv və firavan yaşayış mühitinin formalaşdırılmasına xidmət edəcəkdir.

Bir daha hamınızı Azərbaycanda salamlayır, Forumun işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 15 oktyabr 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli və “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi və “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2023-cü il 8 fevral tarixli 2035 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841 (Cild I); 2024, № 8, maddə 938, № 12 (II kitab), maddə 1373; 2025, № 7, maddə 659) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə “165” rəqəmləri “181” rəqəmləri ilə, “88” rəqəmləri “104” rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə”nin 5-ci hissəsi üzrə:

1.2.1. 5.1-ci bəndin birinci cümləsindən “, habelə Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti” sözləri çıxarılsın;

1.2.2. 5.6-cı bəndin birinci cümləsindən “, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktorundan” sözləri çıxarılsın.

**2.** “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi və “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2035 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 243 (Cild I) 1.8-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.9-cu bənd əlavə edilsin:

“1.9. Naxçıvan Regional Turizm İdarəsi.”.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 15 oktyabr 2025-ci il**

# “Azərbaycan Respublikası Hökuməti ilə Braziliya Federativ Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il sentyabrın 1-də Brazilia şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Braziliya Federativ Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Braziliya Federativ Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 15 oktyabr 2025-ci il**

# “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1501 (Cild I); 2025, № 5, maddə 454) 3-cü hissəsində “55” rəqəmləri “65” rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 15 oktyabr 2025-ci il**

# Hikmət Hacıyev Almaniya Kanslerinin müşaviri ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Berlində Almaniya Kanslerinin xarici və təhlükəsizlik siyasəti üzrə müşaviri Günter Sautter ilə görüşüb.**

Azərbaycan Prezidentinin köməkçisi X hesabında bu barədə paylaşım edib.

Görüşdə iki ölkə arasında ikitərəfli və regional məsələlərin müzakirə olunduğunu qeyd edən Hikmət Hacıyev əlavə edib: “Regionda yaranmış yeni sülh dövrü əlaqələrimizin və Avropa İttifaqı ilə əməkdaşlığın inkişafı üçün geniş imkanlar açır”.



# Mərkəzi Seçki Komissiyasının 2025-ci il 20 iyun tarixli iclas protokolunun təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2025-ci il 20 iyun tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** **Məzahir PƏNAHOV**
**Katib** **Arifə MUXTAROVA**
**Katib** **Mikayıl RƏHİMOV**

# Mərkəzi Seçki Komissiyasının iclası

**Məzahir Pənahovun sədrliyi ilə oktyabrın 15-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**



Əvvəlcə Komissiyanın 2025-ci il iyunun 20-də keçirilən iclasının protokolu təsdiq olunub.

Sonra VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsənin deputat səlahiyyətlərinə xitam verilməsi məsələsinə baxılıb. Bildirilib ki, Milli Məclisin deputatı Ramil Həsən Türk Dövlətləri Parlament Assambleyasının qərarı ilə təşkilatın Baş katibi vəzifəsinə seçilib. Bununla əlaqədar onun MSK-ya ünvanladığı müraciəti və Türk Dövlətləri Parlament Assambleyasının müvafiq təsdiqedici sənədləri qanunvericiliyə uyğun qaydada araşdırılıb, deputat səlahiyyətlərinə xitam verilməsi üçün əsasların olduğu müəyyənləşib. Komissiya qeyd olunanları nəzərə alaraq, ölkə Konstitusiyasının və Seçki Məcəlləsinin tələblərinə əsasən R.Həsənin deputat səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul edib.

İclasda daha sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb.

Media mənsublarının iştirakı ilə keçirilən iclasda, həmçinin cari məsələlərə də baxılıb.

***XQ***

# Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsənin deputat səlahiyyətlərinə xitam verilməsi barədə

## *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsən 2025-ci il oktyabrın 2-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) müraciət edərək Türk Dövlətləri Parlament Assambleyasının (2025-ci il 12 iyun tarixli) Qərarı ilə həmin təşkilatın Baş katibi vəzifəsinə seçilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam verilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı R.S.Həsənin müraciəti və Türk Dövlətləri Parlament Assambleyası tərəfindən təqdim olunmuş təsdiqedici sənədlər qanunvericilikdə nəzərdə tutulmuş qaydada araşdırılmış və onun deputat səlahiyyətlərinə xitam verilməsi üçün əsasların olduğu müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatı başqa ödənişli fəaliyyətlə məşğul olduqda onun deputat səlahiyyətlərinə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 175.3-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının qərarı ilə xitam verilir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək və Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 4-cü bəndinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.14-cü, 28.2-ci, 28.4-cü, 175.3-cü, 176.2-ci və 176.3-cü maddələrinə uyğun olaraq **qərara alır:**

**1.** Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsənin deputat səlahiyyətlərinə xitam verilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir PƏNAHOV**
**Katib** **Arifə MUXTAROVA**
**Katib** **Mikayıl RƏHİMOV**

# Energetika nazirinin qəbulu



**Energetika naziri Pərviz Şahbazov Sumqayıt şəhəri, Cəlilabad və Xaçmaz rayonlarından olan vətəndaşlarla görüşüb.**

Görüşdə qaz təchizatı, qaz sayğacının quraşdırılması, elektrik enerjisi təchizatı, transformatorun yenilənməsi və digər istiqamətlərdə müraciətlər dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

**1.** Ələsgər Xəlil oğlu Abdullayev 44 saylı Sumqayıt üçüncü, Rauf Hüseyn oğlu Heydərov 76 saylı Lənkəran–Masallı, Aida Marks qızı Məmmədova 108 saylı Ağstafa, Səbinə Məhərrəm qızı Həmidova 117 saylı Oğuz–Qəbələ–Şəki seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

**2.** Sevinc Asim qızı Səlimova 60 saylı Quba–Qusar, Zahid Hüseyn oğlu Hüseynov 62 saylı Kürdəmir, Aftandil Rzalı oğlu İsayev 65 saylı Salyan–Biləsuvar–Neftçala, Aytac Müşfiq qızı Nəbiyeva 100 saylı Göygöl–Daşkəsən– Kəlbəcər, Babək Yaşar oğlu Abbasov 102 saylı Şəmkir şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** **Məzahir PƏNAHOV**
**Katib** **Arifə MUXTAROVA**
**Katib** **Mikayıl RƏHİMOV**

# Berlində IDEA-nın "Ana təbiət" sərgisi



**Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində Heydər Əliyev Fondunun, IDEA İctimai Birliyinin və Azərbaycan səfirliyinin birgə təşkilatçılığı ilə MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi açılıb. Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.**










Səfir Nəsimi Ağayev bundan əvvəl bir sıra ölkələrdə uğurla həyata keçirilən bu mədəniyyət layihəsinin Berlində təqdimatından söz açaraq bildirib ki, mühüm problemlərin yaşandığı hazırkı çətin dövrdə təbiət və insanlıq arasında bənzərsiz əlaqənin və vəhdətin təbliğinə xidmət edən belə sərgilər böyük önəm daşıyır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva 31 ölkədən 54 rəssamın əsərlərinin təqdim olunduğu sərginin təşkilatçılarına, layihəyə qoşulan sənətçilərə təşəkkürünü bildirib. O, layihənin Bakıda başlandığını, daha sonra Bəhreyn, London, Roma və Tbilisidə davam etdiyini söyləyib. IDEA-nın bütün layihələrinə yaradıcılıq və pozitiv ruhla yanaşdığını xatırladan Leyla Əliyeva Xəzər dənizinin səthinin kiçildiyini, Xəzər suitisi və Xəzər nərəkimiləri kimi nadir canlı növlərinin tədricən yox olduğunu qeyd edib.

IDEA rəhbəri təbiətin mühafizəsi məqsədilə Azərbaycanda və dünyanın müxtəlif yerlərində 1 milyondan çox ağac əkildiyini, nadir heyvan növlərinin qorunması, məktəb və universitetlərdə tələbələrə təbiətin mühafizəsinin vacibliyinin təbliği istiqamətində, eləcə də suya qənaətlə bağlı "Bir damcı" layihəsi çərçivəsində görülən işləri diqqətə çatdırıb.

Sonra Leyla Əliyeva, Arzu Əliyeva və iştirakçılar sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.

***

**Leyla Əliyeva və Arzu Əliyeva həmin gün "Q" Berlin İncəsənət Qalereyasında istedadlı azərbaycanlı heykəltaraş, Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalmış Samir Kaçayevin "Yarımçıq qalmış, lakin əbədi" adlı sərgisinin də açılışında iştirak ediblər. Şəhid rəssamın ailə üzvləri də mərasimdə olublar.**

***XQ***

# Milli Məclisdə görüşlər



**Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 15-də TÜRKPA-nın Baş katibi Ramil Həsənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Sahibə Qafarova təşkilatın Baş katibini yeni fəaliyyətə başlaması münasibətilə təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Qeyd olunub ki, eyni kökdən olan, ortaq milli-mənəvi dəyərləri bölüşən xalqlarımızın birlik və həmrəyliyinin gücləndirilməsində, qardaş ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əlaqələrin, qarşılıqlı dəstək və birgə fəaliyyətin daha da möhkəmləndirilməsində türk əməkdaşlıq təşkilatları özünəməxsus rol oynayırlar. Bu sırada TÜRKPA çərçivəsində əməkdaşlığın dərinləşməsinin əhəmiyyəti vurğulanaraq bildirilib ki, Türk Dövlətləri Parlament Assambleyası parlamentlərimizin qarşılıqlı faydalı işbirliyinin səmərəli mexanizminə çevrilib və ortaq maraqlarımızı reallaşdırmağa imkan verən mühüm platforma kimi çıxış edir.

Diqqətə çatdırılıb ki, Milli Məclis bu təşkilat çərçivəsində fəaliyyətə böyük önəm verir. Sahibə Qafarova deyib ki, Milli Məclisin TÜRKPA çərçivəsində əməkdaşlığının, həmçinin təşkilata üzv ölkələrin parlamentləri ilə əlaqələrinin mahiyyətində Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur" fikri dayanır.

Görüşdə bu təşkilatın qarşıdakı dövrdə də fəaliyyətinin səmərəli və məqsədyönlü həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

TÜRKPA-nın Baş katibi Ramil Həsən göstərilən etimada görə minnətdarlığını bildirərək, rəhbərlik etdiyi təşkilatın bundan sonra da fəaliyyətinin genişləndirilməsi, təşkilata üzv olan qardaş ölkələrin parlamentləri arasında əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində səylərini davam etdirəcəyini bildirib.

**Dünən Milli Məclisin sədri Sahibə Qafarova Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçıları ilə görüşüb.**



Parlament rəhbəri 100 ölkəni əhatə edən BHA-nın dialoq və əməkdaşlıq üçün mühüm platforma rolunu oynadığını deyib. O bildirib ki, qurumun növbəti illi8k iclasının Azərbaycanda keçirilməsi ölkəmiz üçün rəmzi əhəmiyyət daşıyır: "2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunub. 30 il əvvəl ölkəmizdə qəbul edilmiş Konstitusiyaya əsasən, qanunverici, icraedici və məhkəmə hakimiyyətləri qarşılıqlı əlaqədə fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər".



Parlamentin sədri söyləyib ki, Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasına ev sahibliyi etmək hüququnu qazanması ölkəmizin beynəlxalq nüfuzunun artmasının göstəricisidir və qlobal hüquq ictimaiyyətinin Azərbaycan məhkəmə-hüquq sisteminə olan inam və etimadını əks etdirir.

Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev parlament və məhkəmə orqanları arasında əməkdaşlıqla bağlı fikirlərini açıqlayaraq, Milli Məclisin məhkəmə sisteminə dair bir sıra təşəbbüsləri dəstəklədiyini bildirib, slaydlar vasitəsilə parlamentin səlahiyyətləri, onun fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar barədə məlumat verib.

Azərbaycan Ali Məhkəməsinin Mülki kollegiyasının sədri Sənan Hacıyev və Beynəlxalq Hakimlər Assosiasiyasının prezidenti Valter Baron görüşə, Azərbaycan parlamenti barədə ətraflı təqdimata görə təşəkkür ediblər.

***XQ***

# ATƏT heyəti XİN-də



**Oktyabrın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Finlandiyanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonen ilə görüşüb.**

Görüşdə Azərbaycan-Finlandiya ikitərəfli münasibətləri, Finlandiyanın ATƏT-də sədrliyi dövründə prioritet istiqamətlər, ATƏT-in qarşısında duran çağırışlar, Azərbaycan-ATƏT əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, eləcə də bölgədə postmünaqişə dövründə vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi müzakirə olunub.

Nazirlər ötən il COP29 çərçivəsində Bakıda, eləcə də bu ilin sentyabrında BMT Baş Assambleyasının yüksəksəviyyəli həftəsi zamanı Nyu-Yorkda liderlər arasında keçirilmiş görüşlərin ikitərəfli münasibətlərin inkişafına töhfəsini məmnunluqla qeyd ediblər. Nazirlər münasibətlərin genişləndirilməsi məqsədilə qarşılıqlı səfərlərin və dialoqun intensivləşdirilməsinin vacibliyini vurğulayıblar.

Görüş zamanı Finlandiyanın ATƏT sədrliyi çərçivəsində prioritetlərə toxunulub. O, diqqətə çatdırıb ki, Finlandiyanın sədrliyi Avropada təhlükəsizliyin ciddi çağırışlarla üzləşdiyi dövrə təsadüf edir. Bu şəraitdə ATƏT-in çoxtərəfli platforma kimi çevik şəkildə yeni reallıqlara uyğunlaşmasının, öz aktuallığını və funksionallığını qoruyub saxlamasının əhəmiyyəti vurğulanıb.

Tərəflər postmünaqişə dövründə reallıqları nəzərə alaraq, funksional əhəmiyyətini itirmiş Minsk Prosesi, Fəaliyyətdə olan sədrin xüsusi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupu kimi ATƏT təsisatlarının fəaliyyətinin sentyabrın 1-dən dayandırılması barədə qərarı müsbət qiymətləndiriblər.

***XQ***

# Azərbaycan – Niderland əməkdaşlığı müzakirəsi

**Niderlandda səfərdə olan Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov dünən bu ölkənin xarici işlər nazirinin müavini Marsel de Vink ilə görüşüb.**



Söhbət zamanı son dövrdə ölkə arasında yüksəksəviyyəli təmasların, xüsusilə də "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə Toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Niderlandın Baş naziri Dik Sxofun görüşünün əlaqələrin inkişafı üçün müsbət zəmin yaratdığı qeyd olunub.

Tərəflər mütəmadi siyasi dialoqun, bu çərçivədə xarici işlər nazirləri arasında beynəlxalq platformalar çərçivəsində görüşlərin təşkili, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması üçün cari ilin fevralında nazir müavini Marsel de Vinkin Bakıya səfərinin və qarşılıqlı səfərlərin davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün mövcud imkanlar ətrafında fikir mübadiləsi aparılıb, iqtisadi əməkdaşlığın iki ölkə arasında əlaqələrdə mühüm yer tutduğu qeyd olunub və Niderland şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətindən məmnunluq ifadə edilib.

***XQ***

# Milli Şəhərsalma Forumunun iştirakçıları Şuşada



**Xankəndidə keçirilən III Milli Şəhərsalma Forumunun iştirakçıları Azərbaycanın mədəniyyət paytaxtı Şuşada olublar.**

Şəhərlə tanışlıq işğaldan sonra ilk inşa edilən yaşayış kompleksi ilə başlayıb. Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonaqlara bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhəri, o cümlədən tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb: "Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastruktur layihələri həyata keçirilib, 23 binadan ibarət ilk yaşayış kompleksi istifadəyə verilib".

Qonaqlar sonra Azərbaycanın tanınmış şəxsiyyətləri Üzeyir Hacıbəylinin, Bülbülün və Xurşidbanu Natəvanın güllələnmiş heykəlləri olan mərkəzi meydan, Yuxarı Gövhər Ağa məscidi və qala divarları ilə tanış olublar.

***XQ***

# Əsas məsələ sülh müqaviləsinin imzalanmasıdır

(əvvəli 1-ci səhifədə)

Əlbəttə, M.Qaluzinin münaqişə məntiqini qabartmaqla, tarixə gömmüş Qarabağ konfliktini gündəmə gətirmək niyyəti güddüyünü söyləyə bilmərik. İnanaq ki, o, Bakı və İrəvanın fikir ayrılıqlarını, tərəflər arasında normallaşmaya töhfə verməyi nəzərdə tuturdu. Qaluzinin töhfənin necə olmasına dair baxışına gəlincə, XİN rəsmisinin fikrincə, məsələ Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-2022-ci illərdə imzaladıqları üçtərəfli bəyanatlara söykənməlidir. Təxminən belə: Həmin bəyanatlara əsasən, sülh müqaviləsinin hazırlanması, regionda iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının açılması, sərhədlərin delimitasiyası, eləcə də Ermənistan və Azərbaycanın vətəndaş cəmiyyətləri və parlamentləri arasında dialoqun qurulması istiqamətində irəliləyişə nail olmaq vacibdir.

Qeyd edək ki, Prezident İlham Əliyevlə baş nazir Paşinyanın Əbu-Dabi təmasından sonra Azərbaycan və Ermənistanın Xarici İşlər Nazirlikləri oxşar məzmunlu bəyanatlar yaymış və bildirmişdilər ki, "tərəflər "normallaşma prosesi ilə bağlı bütün məsələlərin müzakirəsi üçün ikitərəfli danışıqların ən səmərəli format olduğunu təsdiqləyib və nəticəyönümlü dialoqun davam etdirilməsi barədə razılıq əldə olunub". Bunun müqabilində Qaluzinin sırf vasitəçilik xüsusunda nə dediyi bir o qədər önəm daşımasa da, söylədiklərini pozitiv qiymətləndiririk.

Onu da bildirək ki, M.Qaluzinin Azərbaycan–Ermənistan normallaşmasına dair, belə demək mümkünsə, eyhamlı açıqlamaları da olub. Məsələn, o deyib ki, tərəflər arasındakı sülh müqaviləsi "gələcək nəsillər üçün yeni problemlər yaratmayan" sənəd olmalıdır. XİN rəsmisinin daha böyük eyhamı isə özünü Qərbin danışıqlar prosesindəki vasitəçiliyinə açıq şəkildə qarşı çıxmaq xüsusunda göstərib. O bildirib ki, Avropa İttifaqı, ABŞ və digərləri normallaşma prosesində iştirak etmək istəyirlərsə, bu, yalnız Rusiya tərəfindən formalaşdırılmış mövcud razılaşmalar çərçivəsində reallaşa bilər: "Qərb prosesi öz formatı ilə əvəzləməyə çalışmamalıdır".

Beləliklə, "Ria Novosti" xəbər verir ki, Qaluzin Ermənistanın müstəqilllik günü ilə bağlı qəbuldakı çıxışında Rusiyanın Bakı və İrəvan arasında sülh sazişinin imzalanması üçün platforma təqdim etmək barədəki təklifinin qüvvədə qaldığını deyib. O, həmçinin, Rusiyanın münasibətlərinin normallaşmasına xüsusi əhəmiyyət verdiyini vurğulayıb. "Aydındır ki, nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi üçün hələ ciddi işlər görülməlidir. Biz İrəvan və Bakıya qalan fikir ayrılıqlarının aradan qaldırılmasında, o cümlədən Rusiya, Ermə-



nistan və Azərbaycan liderlərinin üçtərəfli bəyanatlarını nəzərə alaraq, lazımi yardımı göstərməyə hazırıq", - deyən XİN rəsmisi ölkəsinin Azərbaycan–Ermənistan nizamlanma prosesində mühüm və səmərəli rol oynadığını da bildirib. Ermənistanın Rusiyadakı səfiri Qurgen Arsenyan da Moskvanın diplomatik səylərini yüksək qiymətləndirərək, onun sülh prosesinə töhfəsini "xüsusi" adlandırıb. Bəli, Rusiyanın töhfəsini xüsusi adlandırmaq mümkündür. O anlamda ki, ölkə 44 günlük müharibənin başa çatdırılmasında, yəni 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın ərsəyə gəlməsində müstəsna rol oynayıb. Eləcə də Prezident Vladimir Putinin Azərbaycan və Ermənistan liderlərinin sonrakı üçtərəfli görüşlərinin təşkilində aktiv mövqe tutduğu məlumdur. Amma...

"Əmma"nı xarakterizə edən çox məqamlar var. Birincisi, nəinki 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı, ümumən Rusiyanın vasitəçiliyi ilə ərsəyə gəlmiş üçtərəfli bəyanatlar sistemini demorilizə edən Ermənistan iqtidarı oldu. Rəsmi İrəvan Moskvanın erməni sevdasına siyasi sərmayə yatıraraq, özünü şıltaq uşaq kimi aparmış, hesab etmişdi ki, Rusiyadan incikliyi yüksək fazaya gətirməklə, onun həmin incikliyi aradan qaldırmaq üçün Bakıya təsirini gücləndirmək mümkündür. Əlbəttə, Rusiyanın Azərbaycana erməni maraqları naminə hansısa təzyiq göstərməsi mümkünsüz idi. Amma Kreml təmsilçiləri müəyyən bəyanatlar səsləndirmişdilər. O bəyanatlar ki, faktiki olaraq, münaqişə məntiqini qorumağa xidmət təsiri bağışlamışdı. Məsələn, Rusiya Qarabağın statusu məsələsinin sonraya saxlanılması ideyasını irəli sürmüşdü. Bu, mahiyyət etibarilə bölgədəki keçmiş separatçı rejimin ömrünün uzadılması demək idi. Amma Moskva erməni sevdasını yaşatmaq üçün başqa nə isə tapa bilməmişdi. İrəvan isə daha çoxuna iddialı olmuş, istəmişdi ki, Rusiya Ermənistana görə Azərbaycanla açıq konfrontasiyaya getsin.



Beləliklə, Ermənistan şərti sərhəd xətti boyunca təxribatlar törətməklə ölkəmizi sərt tədbirlərə əl atmağa vadar etmişdi. Sərt tədbirlərdən biri 2022-ci ilin sentyabrında qeydə alınmışdı. Həmin vaxt Azərbaycan ordusu qarşı tərəfin atəş nöqtələrini susdurmaq üçün strateji yüksəklikləri ələ keçirmişdi ki, Paşinyan iqtidarı bunu işğal olaraq qiymətləndirmiş və Rusiyanın hakim rol oynadığı, Ermənistanın üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını Azərbaycana qarşı qaldırmağa cəhd göstərmiş, məqsədinə çatmayanda, qurumun faydalı olmadığını söyləmişdi.

Bəli, Ermənistanın Qərb tərəfindən idarə olunan anti-Rusiya xətti Kremlə üçtərəfli bəyanatlarda əksini tapan məqamların gerçəkləşdirilməsinə imkan vermirdi. İrəvanı yenidən öz orbitinə qaytarmağa ümid bəsləyən Moskva tədricən sülhyaratma missiyasından, barış prosesindəki fundamental və ədalətli yanaşmadan uzaq düşürdü. Ümumən belə qənaət hasil olurdu ki, Rusiya Ermənistanın hədsizliyinə sonsuzadək dözmək niyyətindədir. Hələ Qarabağdakı rus sülhməramlılarının separatçılara silah-sursat daşınmasını müşayiət etməsi kimi qəbuledilməz mənzərə də olub. Azərbaycan isə haqqını əldə etməkdə israrlı davranıb və məqsədinə çatıb.

Sözümüz ondadır ki, M.Qaluzin Rusiyanın Azərbaycan–Ermənistan sülh sazişinin imzalanması üçün platforma verməyə hazır olduğunu bütün bunlardan sonra bildirir. Bu yerdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə avqustun 8-də Bakı–İrəvan sülh sazişinin paraflanmasını, habelə Prezident Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanmasını yada salmalıyıq. Mövcud fonda Birləşmiş Ştatların timsalında Qərb və Rusiya arasındakı vasitəçilik xəttinin müqayisəsindən uzağıq. Nəzərə alaq ki, böyük ölçüdə söhbət vasitəçilikdən getmir. Çünki tərəflər özləri anlaşıblar. Sadəcə, ABŞ-ın əvvəlki iqtidarından fərqli olaraq, Ağ Evin indiki administrasiyası həmin anlaşmaya tərəfkeşlik obrazı qazandırmağa, erməni avantürizmi üçün hansısa tutacaq yer saxlamağa çalışmayıb, praktiki olaraq neytrallıq nümayiş etdirib. Rusiyaya gəldikdə, ölkədə hakimiyyət dəyişikliyi olmayıb, yuxarıda sadaladığımız məqamlar isə Moskvaya neytral ampluada baxmağa imkan verməyib.

Digər tərəfdən, Azərbaycan Ermənistandan fərqli olaraq, Rusiyanın vasitəçilik missiyasına saymazyana münasibət göstərməyib. Ölkəmizin istəyi bu olub ki, Cənubi Qafqazda sülh prosesi geosiyasi rəqabət üçün alətə çevrilməsin. Qərbin həmin proses çərçivəsində Rusiyanı regiondan sıxışdırmaq istəyinin olduğunu da, zaman-zaman bu məqsədlə Ermənistanı vasitəyə çevirməsini də bilirik. Elə isə sual yaranır: Rusiya bölgəyə rəqabət prizmasından yanaşmayıb? Yanaşıb. Hazırda Qaluzin sülh müqaviləsinin imzalanmasına ev sahibliyindən söz açıbsa, necə inanaq ki, Moskva Qərblə rəqabət məramından uzaqdır? Həmçinin axı hazırda barış sazişinə dair bütün detallar razılaşdırılıb. Hətta dekabrın 1-dən ATƏT-in özündə Qarabağ münaqişəsi məntiqini daşıyan Minsk qrupunun fəaliyyətinə də rəsmən son qoyulacaq. O qrup ki, tərkibində Rusiya da təmsil olunurdu və Moskva, prinsipcə, təsisatın ləğvində maraqlı idi. Amma nə üçün? Ona görə ki, ölkə 44 günlük müharibədən sonra Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsini, bir növ, inhisara almış, Minks qrupundakı ABŞ və Fransanın rolunun əhəmiyyətsizləşdirmək xətti götürmüşdü. Şübhəsiz, Kreml savaşa son qoyan tərəf kimi buna daha çox haqqının olduğunu əsas götürə bilərdi. Amma haqq ədalətə söykənməlidir. Vəziyyət belə alındı ki, Rusiya normallaşma prosesində ədalətli ola bilmədi və durumun ayrı-ayrı etüdlərini diqqətə çatdırdıq. Əlqərəz, başlıca məsələ sülh sazişinin harada imzalanması yox, onun imzalanmasıdır. Bunun üçün isə Ermənistanın yerinə yetirməli olduğu bir şərt qalır. Söhbət ölkə konstitusiyasının işğalçı mahiyyət daşıyan İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qalxmasından gedir. Yəni, yol referendum yoludur. O yol ki, rəsmi İrəvan onun gedilməsini özünün daxili işi hesab edir. Moskva erməni iqtidarına məsələni, necə deyərlər, sırf sülhün işi kimi təlqin edə bilərmi? Edə bilərsə, buyursun. Qaluzin isə əmin olsun ki, bu halda Rusiya yekun sülh müqaviləsinin imzalanması platforması kimi çıxış etmək üçün mənəvi haqq qazanacaq. Daha doğrusu, 44 günlük müharibəyə son qoymaqla qazandığı haqqı bərpa edəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Müxtəlif coğrafiyaların fərqli formatlarında fəal iştirak

(əvvəli 1-ci səhifədə)

Azərbaycan niyə bu gün Yaxın Şərqdə və Qlobal Cənubda "etibarlı vasitəçi" kimi qəbul olunur? Müasir beynəlxalq münasibətlər sistemində etibar artıq resursların və ya hərbi gücün deyil, siyasətin ən qiymətli valyutasına çevrilib. Qlobal qeyri-müəyyənliklər, siyasi qütbləşmə və regional qarşıdurmalar fonunda çox az dövlətlər var ki,



eyni anda fərqli güc mərkəzləri tərəfindən qəbul edilə, həm də vasitəçi kimi etibar qazana bilsin. Azərbaycan bu baxımdan istisna nümunədir. Onun bu imici uzun illər ardıcıl şəkildə formalaşdırılmış müstəqil qərarvermə mədəniyyəti, sabitlik siyasəti və nəticəyə hesablanmış diplomatik davranışın təməlində dayanır.

Azərbaycanın xarici siyasəti ənənəvi ittifaqlardan fərqli olaraq, ideoloji asılılığa əsaslanmır. Bakı nə Qərbin orbitindədir, nə də Şərqin siyasi təsir sahəsində. Müstəqil qərarvermə modeli ölkəyə həm Vaşinqton, həm Moskva, həm Ər-Riyadla, həm də Qahirə və Pekin kimi paytaxtlarla bərabər səviyyədə dialoq qurmaq imkanı verir. İlham Əliyevin diplomatik xəttində əsas prinsip aydındır: Azərbaycan heç kimə qarşı deyil, amma hər kəslə dialoqda iştirak edir. "Bloklara qoşulmamaq" siyasəti çoxqütblü dünyada balans yaratmaq bacarığıdır.

Yaxın Şərqdə siyasi rejimlər bir-birinin ardınca silkələnərkən, Cənubi Qafqazda hərbi qarşıdurmalar davam edərkən, Azərbaycan öz daxilində sabitlik və idarəetmə ardıcıllığını qorumağı bacardı. Ölkənin enerji, nəqliyyat və logistika sistemlərini vahid regional platformada cəmləyən Azərbaycanın sabitlik ixrac edən mərkəzə çevrilməsinə gətirib çıxardı.

Etimadın digər dayağı isə sülh diplomatiyasının praktik nəticələridir. 2020-ci ildən sonra Azərbaycan regionda yeni siyasi reallıq yaratdı və bu reallığı sülh dili ilə davam etdirdi. İlham Əliyevin postmünaqişə dövründə apardığı siyasət praqmatik addımlar üzərində quruldu: bərpa, inteqrasiya, qarşılıqlı asılılıq. Belə bir yanaşma beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənildi və qəbul edildi. ABŞ Prezidenti Donald Trampın Qahirə Sammitində söylədiyi "Mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Onlar 31 il vuruşdular, indi dostdurlar" sözləri əslində, yeni reallığın təsdiqi idi.

Azərbaycan bu gün sabitliyin daşıyıcısı kimi qəbul olunur. Yaxın Şərqdə və Qlobal Cənubda onun etibarlı vasitəçi obrazı, əslində, gücə əsaslanmayan, amma gücləri bir masaya gətirə bilən diplomatiyanın məhsuludur. Bakı silah dilindən yox, etimad dilindən istifadə edir. Deməli, Azərbaycanın etibarlı tərəfdaş kimi yüksəlişi davranış ardıcıllığına söykənir. Bu gün ərəb ölkələri, İsrail, Avropa İttifaqı və ABŞ üçün Azərbaycan qlobal sabitlik tənliyində balans elementi kimi görünür.

***

Son vaxtlar diqqətçəkən məqamlardan biri İlham Əliyevin fərqli geosiyasi mərkəzlərin liderləri – Fransa Prezidenti Emmanuel Makron, Rusiya Prezidenti Vladimir Putin və Avropa İttifaqının yüksək nümayəndələri ilə keçirdiyi paralel görüşlər idi. Burada əsas məsələ görüşlərin özündən çox onların eyni zaman kəsiyində baş verməsi idi. Bu addımlar Azərbaycanın siyasət fəlsəfəsində formalaşmış yeni anlayışa – "paralel formatlarda iştirak modeli"nə uyğun idi.

İlham Əliyevin diplomatiyası son illər çoxlaylı koordinasiya sistemi üzərində işləyir. O, bir tərəfdən Rusiya ilə regiondakı tarixi və strateji balansı qoruyur, digər tərəfdən Qərblə enerji və iqtisadi inteqrasiyanı genişləndirir, eyni zamanda İslam dünyası ilə siyasi həmrəyliyi və mənəvi yaxınlığı saxlayır. Üç istiqamətin paralel şəkildə işləməsi Azərbaycanı "kəsişmə nöqtəsi"nə çevirib. Burada nə ziddiyyət, nə də qarşıdurma var, əksinə, maraqların uzlaşdırıldığı unikal bir diplomatik məkan var.



Makronla görüş bu baxımdan xüsusi simvolizm daşıyırdı. Parisin son illərdə Cənubi Qafqaz siyasətində birtərəfli yanaşması fonunda İlham Əliyevin Fransa lideri ilə üz-üzə dialoqa getməsi, əslində, Bakının rasional maraqlarla hərəkət etdiyini göstərdi. Azərbaycan Fransa ilə münasibətləri məsuliyyətli tərəfdaşlıq səviyyəsində saxlayır. Bu, İlham Əliyevin diplomatik üslubunda çox incə xəttlə ifadə olunur: tənqidə cavab diplomatiya ilə verilir, təkzib diplomatik nəticə ilə. Makronla təmas bu mənada Avropaya siqnal idi– Bakı münasibətlərin bərabər tərəfdaşlıq əsasında yenidən qurulmasını istəyir.

Putinlə görüş isə Azərbaycanın Rusiya ilə münasibətlərinin dərin strateji təməlini bir daha göstərdi. Moskva və Bakı arasında münasibətlər son illər geosiyasi gərginliklər fonunda da stabilliyini qoruyub. İlham Əliyev bu münasibətləri "regional praqmatizm"in nümunəsinə çevirib – nə tabeçilik, nə qarşıdurma, sadəcə, maraqların kəsişməsi üzərində qurulan əməkdaşlıq. Rusiya ilə dialoq Azərbaycanın balanslı siyasətinin Şimal vektorudur: O, nə Qərbin əksinədir, nə də Şərqin təkrarı. Əslində, Azərbaycan hər iki gücün təmas xəttində dayanan sabitləşdirici bufer rolunu oynayır.

Aİ liderləri ilə görüşlər isə daha geniş çərçivədə Azərbaycanın Avropa enerji təhlükəsizliyindəki əvəzolunmaz rolunu təsdiqlədi. Brüssel etiraf edir ki, enerji və nəqliyyat marşrutlarının təhlükəsizliyində Bakı artıq strateji təminatçıdır. Cənub Qaz Dəhlizi, Bakı–Tbilisi–Qars xətti, "yaşıl enerji dəhlizi" kimi layihələr Azərbaycanı Avropanın enerji arxitekturasının mərkəzinə gətirib.

***

Azərbaycanın Yaxın Şərqdə artan rolu təkcə diplomatik fəallıqla deyil, həm də etimad iqtisadiyyatı üzərində qurulub. Regionda bir çox güc mərkəzləri bir-birinə qarşı şübhə ilə yanaşdığı halda, Azərbaycan həm ərəb ölkələri, həm İsrail, həm də Qərb tərəfindən eyni səviyyədə qəbul olunur.

İsrail ilə münasibətlərdə bu etimad uzunmüddətli strateji əməkdaşlığa çevrilib. Digər tərəfdən, Körfəz ölkələri ilə əlaqələr son illər iqtisadi və strateji məzmun baxımından yeni mərhələyə keçib. Bu çoxsəviyyəli iştirakın fonunda ortaya çıxan əsas sual təbiidir: ABŞ, İsrail və ərəb ölkələrinin eyni anda Azərbaycana etibar etməsinin əsas səbəbi nədir?

Etimadın sirri Azərbaycanın ideoloji neytrallığında və diplomatik sabitliyində gizlənir. Bakı öz mövqeyini heç vaxt "blok diplomatiyası" üzərində qurmayıb. Bakı heç vaxt "İslam kartı"ndan istifadə etməyib, amma İslam dünyasında hörmət qazanıb; "Qərb kartı"nı oynamayıb, amma Qərblə strateji tərəfdaşlığa nail olub. Əslində, Azərbaycan bu regionda nadir fenomen yaradır: o, fərqli dini, siyasi və iqtisadi kimliklər arasında təmas nöqtəsi rolunu oynayır. Burada əsas prinsip aydındır – Bakı öz davranış ardıcıllığını ixrac edir və bu ardıcıllıq sabitlik üzərində qurulub.

Dünyada etimad qıtlığı dərinləşdiyi bir vaxtda Azərbaycan etimad ixrac edən nadir ölkələrdən birinə çevrilib. İlham Əliyevin diplomatik fəlsəfəsi bu etimadı həm Qərb, həm Şərq, həm də İslam dünyasında eyni anda möhkəmləndirə bilib. Məhz bu, XXI əsrin çoxqütblü dünyasında balans üzərində qurulmuş müstəqil liderlik modelidir.

Azərbaycan dünyanın dəyişən güc arxitekturasında mərkəz nöqtəsi rolunu oynayır. Onun diplomatiyası siyasətin sərt məntiqini, geosiyasətin soyuq hesabını və etimadın humanitar dəyərini eyni məxrəcə gətirir. Və bu gün bəlkə də beynəlxalq münasibətlərdə ən çox axtarılan model budur – müharibə olmadan güc, tərəf tutmadan təsir, qarşıdurma yaratmadan balans yaratmaq.

Belə bir modelin adı isə getdikcə daha aydın səslənir: Azərbaycan diplomatiyası – XXI əsrin sabitlik kodu.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Yeni sabitlik paradiqmasının konturları

## *Azərbaycan–Türkiyə–Pakistan birliyi Avrasiyanın siyasi məkanında yeni səhifə açır*



**Azərbaycan, Türkiyə və Pakistanın əməkdaşlığı coğrafi sərhədləri aşaraq yeni strateji birliyin nüvəsini formalaşdırıb. Ortaq tarixi, mədəni kodlar və geosiyasi birlik üzərində qurulan əlaqələr regionda yeni sabitlik paradiqmaları yaradır. Qardaşlıq, siyasi və mədəni həmrəylik, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində funksional inteqrasiyanın əsasını qoyur, üçtərəfli əməkdaşlığın regional və qlobal geosiyasətə təsirini gücləndirir.**

Bu baxımdan oktyabrın 13–14-də Pakistanın paytaxtı İslamabadda keçirilən Azərbaycan–Türkiyə–Pakistan parlament sədrlərinin 3-cü üçtərəfli görüşü dərin mənəvi hadisə oldu. Görüşün sonunda imzalanan İslamabad Bəyannaməsi qardaşlıq münasibətlərini sənəd səviyyəsində təsdiqlədi, onu siyasi öhdəliyə çevirdi. Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş və Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq tərəfindən imzalanan sənəd siyasi baxımdan emosional kod daşıyır – burada diplomatiya isti qardaşlıq enerjisi ilə formalaşır. İslamabad görüşü həm də geosiyasi mənada maraqların təmərküzləşmə nöqtəsidir. Azərbaycanın enerji və nəqliyyat infrastrukturu, Türkiyənin NATO çərçivəsindəki hərbi çəkisi, Pakistanın nüvə statusu – bu üç komponent regionda yeni balans yaradır.

Pakistan və Türkiyə kimi iki nəhəng dövlətin Azərbaycanın əhəmiyyətini dərk edərək onunla birgə üçtərəfli əməkdaşlıq formatı yaratması təsadüfi deyil. Bu, Azərbaycanın bölgədə artan nüfuzunun və etibarlı tərəfdaş kimi qəbul olunmasının bariz göstəricisidir. Azərbaycanın təşəbbüskarlığı və diplomatik çevikliyi nəticəsində bu üçtərəfli format regional güc mərkəzinin formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır. Gələcəkdə İran ərazisindən keçəcək dəmir yolu layihəsinin tam gücü ilə işə düşməsi Pakistanla nəqliyyat-kommunikasiya əlaqələrimizi xeyli genişləndirəcək. Bu da ticarət dövriyyəsinin artmasına, iqtisadi əməkdaşlığın dərinləşməsinə və Cənubi Qafqazla Cənubi Asiya arasında strateji körpünün möhkəmlənməsinə imkan yaradacaq.

Bu baxımdan bəyannamədə regional sabitlik, beynəlxalq hüquqa hörmət, terrorizmə qarşı mübarizə, gənclərin və qadınların siyasi fəallığının artırılması kimi mövzular yer alıb. Sənəd ölkəmizin ərazi bütövlüyünə açıq dəstək ifadə etməklə, ədalətin regional konfiqurasiyadakı bərpasını beynəlxalq müstəviyə daşıyır.

***

İslamabad görüşü parlamentlərin beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzinə çevrildiyini nümayiş etdirdi. Çünki əgər klassik diplomatiya dövlətlər arasında rəsmi müqavilələrlə bağlıdırsa, parlament diplomatiyası xalqların iradəsini bir araya gətirən canlı mexanizmdir. Üç ölkənin parlament rəhbərləri arasındakı təmaslar gələcəkdə qəbul ediləcək qanunların ruhuna, regionda formalaşacaq ideoloji atmosferə təsir göstərən amilə çevriləcək. Sahibə Qafarovanın sözləri bu baxımdan diqqətəlayiqdir: “Bu əməkdaşlıq xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, dostluq və həmrəyliyi dərinləşdirir”. Bu ifadə diplomatik jest kimi səslənsə də, əslində, strateji yanaşmanın ideoloji bünövrəsidir, yəni dövlətlər birləşəndə, xalqlar da bir ruh altında toplanır. Türkiyə parlamentinin sədri Numan Kurtulmuşun “parlament diplomatiyası əlaqələrin dərinləşməsi üçün yeni körpü rolunu oynayır” fikri bu görüşün fəlsəfəsini açır, Pakistan Milli Assambleyasının rəhbəri Sərdar Ayaz Sadiqin “üç qardaş ölkə üçün bu platforma strateji fürsət pəncərəsidir” ifadəsi isə Bəyannamənin təkcə bugünü yox, gələcəyi hədəflədiyini göstərir.

Bəyannamənin siyasi çəkisi hüquqi sənədlərin təsir gücünü dəfələrlə aşır. 2021-ci ildə İslamabadda xarici işlər nazirləri səviyyəsində qəbul edilən eyniadlı sənəd icra hakimiyyətinin diplomatik mesajı idisə, 2025-ci il versiyası artıq parlamentlərin strateji andıdır.

Azərbaycan, Türkiyə və Pakistanın formalaşdırdığı bu platforma artıq regionun təhlükəsizlik və diplomatik sisteminin daimi aktoruna çevrilib. İslamabad Bəyannaməsi də bu inteqrasiyanın hüquqi simvolu və gələcəyə mesajıdır.

Bu sənəd üç xalqın ortaq tarixindən doğmuş həmrəylik enerjisinə siyasi istiqamət verir. O istiqamətin xəritəsində isə iqtisadi rifah və hərbi sabitlik, ədalət, ləyaqət və müstəqillik dayanır. Üç qardaşın birlikdə başladığı bu yeni mərhələ Avrasiyanın siyasi memarlığında yeni səhifə açır. Səhifənin başlığı isə artıq yazılıb – İslamabad Bəyannaməsi.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

**Pakistan və Türkiyə bu gün İslam dünyasında hərbi-siyasi güc, regional təsir və strateji potensial baxımından aparıcı mövqeyə malik dövlətlərdir. Pakistan nüvə silahına sahib olan yeganə müsəlman ölkəsi olmaqla yanaşı, təxminən 250 milyon nəfərlik əhalisi ilə İslam dünyasının ən iri demoqrafik mərkəzi sayılır.**

Türkiyə isə həm NATO üzvü kimi Qərb təhlükəsizlik arxitekturasında mühüm rol oynayır, həm də alyans daxilində ABŞ-dan sonra ən güclü ordulardan birinə malik olması ilə seçilir. Azərbaycanın artan geosiyasi çəkisi və regional əhəmiyyəti də nəzərə alınaraq üçtərəfli əməkdaşlıq formatının yaranması bölgədə formalaşan yeni güc balansının təzahürüdür. Sözügedən format Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş və sabit inkişaf modeli kimi qəbul olunmasının real göstəricisidir.

Rəsmi Bakının təşəbbüskarlığı, diplomatik çevikliyi nəticəsində bu üçtərəfli format təkcə siyasi əməkdaşlıq deyil, həm də regional güc mərkəzinin formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır. Gələcəkdə İran ərazisindən keçəcək dəmir yolu layihəsinin tam gücü ilə işə düşməsi Pakistanla nəqliyyat-kommunikasiya əlaqələrimizi xeyli genişləndirəcək. Bu isə ticarət dövriyyəsinin artmasına, iqtisadi əməkdaşlığın dərinləşməsinə və Cənubi Qafqazla Cənubi Asiya arasında strateji körpünün möhkəmlənməsinə imkan yaradacaq.

Bu gün Azərbaycan, Türkiyə və Pakistan arasında formalaşan üçtərəfli münasibətlər parlamentlər və ictimai institutlar səviyyəsində də yeni diplomatik platforma yaradır. Bu əməkdaşlıq bir tərəfdən regionda sabitlik və inkişafın təminatına xidmət edir, digər tərəfdən isə Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırır. Bütün bunlar İslam dünyasının siyasi həmrəyliyi, iqtisadi inteqrasiyası və təhlükəsizlik arxitekturası baxımından unikal bir modeldir.

Bu əməkdaşlıq Azərbaycanın çoxşaxəli xarici siyasətinin uğurlu və gələcəkdə regional geosiyasətin yeni istiqamətlərini müəyyən edə biləcək strateji platformaya çevriləcək.

---

# Yelisey sarayı “Yupiter”inin çöküşü

## *Makron pensiya islahatını dayandırmaqla komandasına dəstək verir*

**Fransa siyasətinin səhnəsində pərdələr hər kəsin labüd olduğunu bildiyi təslimiyyət aktı üçün qalxdı. Bir zamanlar özünü Roma tanrısı Yupiterə bənzədən, qərarları təkbaşına verən və köhnə siyasi qaydaları alt-üst etməyə gəldiyini bəyan edən Prezident Emmanuel Makron siyasi varlığının və son hökumətini əvvəlki kabinetin qısaömürlülük taleyindən qorumaq üçün heç bir iddialı siyasətçinin istəmədiyi addımı atmalı oldu: O, dolayısı ilə səhvini, həm də bunu mühüm məsələdə etdiyini boynuna aldı. Bu, idarəçilik fəlsəfəsinin kapitulyasiyası, makronizmin təməl daşlarından sayılan sabitləşdirici islahatçılıq iradəsinin amansız siyasi reallıqlar qarşısında diz çökməsi idi.**



Çərşənbə axşamı Fransa siyasətinin salnaməsinə qızıl hərflərlə yazılacaq. Amma bu hərflərin parıltısının arxasında dərin siyasi zəifliyin gizləndiyi gözlənilməz dönüş baş verdi. Makron bir neçə gün əvvəl cəmi 14 saatlıq fəaliyyətdən sonra dağılan kabinetin xarabalıqları üzərində yenidən baş nazir təyin etdiyi Sebastyan Lekornuya öz siyasi irsinin tacı hesab edilən, milyonlarla insanı küçələrə tökən və ölkəni aylarla iflic vəziyyətində saxlayan pensiya yaşının artırılması qanununu 2027-ci ildə keçiriləcək prezident seçkilərinə qədər dayandırmaq üçün gizli razılıq verdi. Bu, siyasi şahmatda şahın ən güclü vəzirini qurban verməsi idi. Makron bir zamanlar “Fransanın gələcəyi üçün qaçılmaz” adlandırdığı islahatı indi hökumətinin bir neçə həftəlik gələcəyi üçün girov qoyurdu.

Bu təslimiyyət aktının arxasında duran səbəb isə acı bir siyasi riyaziyyat idi. Parlamentdəki 69 deputatı ilə hökumətin taleyini əlində saxlayan Sosialist Partiyası Makronun siyasi sağ qalması üçün yeganə ümid qapısına çevrilmişdi. Vaxtilə Makronun siyasi səhnədən sildiyi, aktuallığını itirmiş hesab etdiyi köhnə qvardiya indi onun hökumətinin şah damarını əlində tuturdu. Sosialistlər Lekornunun parlamentdəki ilk proqram çıxışından sonra baş nazirə və hökumətə qarşı etimadsızlıq votumuna qoşulmayacaqlarını bildirdilər. Lakin bu, boğaza dirənmiş bıçağın müvəqqəti olaraq çəkilməsi idi. Partiyanın parlament lideri Boris Vallonun qeyd etdiyi kimi, “sözlərin əmələ çevrildiyini” görənədək etimadsızlıq hədəsi gilyotin kimi hökumətin başı üzərində asılı qalacaqdı. Yəni sosialistlər Makronun nəfəs almaq üçün hava verdilər, lakin oksigen balonunun ventilini əllərində saxladılar.

Digər müxalifət partiyalarının ifrat sola qədər bütün spektrin Lekornunu devirməyə çalışacağını bəyan etməsinə baxmayaraq, sosialistlərin bu taktiki qərarı hökumətə müasir Fransa tarixinin ən gərgin və xaotik siyasi dövrlərindən birindən sonra müvəqqəti nəfəs almaq imkanı verdi. Lekornunun ilk kabinetinin cəmi 14 saat fəaliyyət göstərərək dağılması və istefasının Fransa siyasətini tam xaos burulğanına sürükləməsi hələ yaddaşlarda təzə idi. Bu hadisə təkcə siyasi dairələri sarsıtmamış, həm də maliyyə bazarlarını ciddi şəkildə təşvişə salmış, Avrozonanın ikinci ən böyük iqtisadiyyatının öz üzərinə götürdüyü kəskin büdcə kəsintilərini həyata keçirə bilməyəcəyi qorxusunu yaratmışdı. Makron cümə günü Lekornunu yenidən baş nazir təyin edərək bu yanğını söndürməyə çalışdı və Lekornu bazar günü yeni kabinetin formalaşdırılması istiqamətində addımlar ataraq cəmiyyətə sabitlik görüntüsü verməyə cəhd etdi. Amma hər kəs bilirdi ki, bu sabitlik sosialistlərin lütfü ilə alınan borc idi və bu borcun faizi olduqca yüksəkdir.

Baş nazir Lekornu Makronun ikinci prezidentlik müddətinin əsas islahatı hesab edilən qanun layihəsinin dayandırılmasını Fransanın pensiya siyasətini yenidən, daha geniş kontekstdə nəzərdən keçirməsi üçün bir “fürsət” kimi qələmə verdi. Deputatlara müraciət edərkən o, sanki heç bir məcburiyyət altında qalmadıqlarını, əksinə, qərarı müdrikliklə verdiklərini göstərməyə çalışırdı: “Pensiya məsələsinin müzakirəsi təkcə maliyyə hesabatından ibarət deyil. Bu, bizim sosial müqaviləmizin vacib hissəsidir və aydındır ki, bu müqavilənin yenilənməsinə, təzələnməsinə ehtiyac var”. Bu sözlər, əslində, bir il əvvəl eyni islahatı konstitusiyanın xüsusi maddəsindən istifadə edərək parlamentdə səsverməyə qoymadan, zorla qəbul etdirən hökumətin iflasının poetik etirafı idi.

Güzəştin maliyyə tərəfi də var idi. Baş nazir populist addımın dövlət xərclərinə nəzarətin saxlanılması üçün ciddi qənaət tədbirləri ilə müşayiət olunmalı olduğunu da qeyd etməkdən çəkinmədi. Lekornunun hesablamalarına görə, pensiya islahatının dayandırılması təkcə 2026-cı ildə Fransaya 400 milyon avroya başa gələcəkdi. Bu, hökumətin növbəti il üçün büdcə kəsirini Ümumi Daxili Məhsulun 5 faizindən aşağı salmaq məqsədilə 31 milyard avroluq xərcləri azaltmaq və vergi artımını nəzərdə tutan plan açıqladığı bir vaxtda xüsusilə ağrılı rəqəm idi. Maraqlıdır ki, maliyyə bazarları büdcəyə əlavə yük gətirən addıma təəccüblü dərəcədə müsbət reaksiya verdi. Lekornunun bəyanatından dərhal sonra 10 illik dövlət istiqrazlarının faizi 0,07 bənd azalaraq 3,40 faizə düşdü və Almaniya ilə müqayisədə risk fərqi 0,80 bəndə qədər endi. Bu, son üç həftənin ən aşağı göstəricisi idi. CAC40 səhm indeksi 0,2 faiz azalsa da, Avropanın digər bazarları ilə müqayisədə nisbətən sabit qaldı. Bu reaksiyanın səbəbi aydın idi: bazarlar üçün qısamüddətli sabitlik uzunmüddətli maliyyə intizamından daha vacib idi.

Lakin bu müvəqqəti sabitliyin bədəli ağır olacaqdı. Pensiya islahatının dayandırılması, Makronun onsuz da zəif olan koalisiyasında dərin çatlar yaratmağa məhkum idi. Xüsusilə, hökumətin potensial müttəfiqi hesab edilən maliyyə intizamına hər şeydən çox üstünlük verən mühafizəkar Respublikaçılar Partiyası bu addımı xəyanət kimi qiymətləndirdi. Partiyanın lideri Bruno Retayyo qəzəbini gizlətmədən bəyan etdi: “Pensiya islahatının dayandırılması və baş nazirin miqrasiya məsələsində pərakəndə susqunluğu bir daha göstərir ki, bu hökumət artıq sosialistlərin girovuna çevrilib”. Bu bəyanat Makronun ikinci müddətində sağa doğru manevr edərək mühafizəkarların dəstəyini qazanmaq strategiyasının tamamilə iflasa uğradığını göstərirdi. Hökuməti xilas etmək üçün sola edilən güzəşt sağdakı son körpülərin də yandırılması demək idi.

Nəhayət, bazar ertəsi ilk dəfə ictimaiyyət qarşısında vəziyyəti şərh edən Prezident Makron bütün qarışıqlığı Sebastyan Lekornunu zəiflətməyə çalışan siyasi qüvvələrin oyunları ilə əlaqələndirdi. Bu, yaratdığı xaosun məsuliyyətini başqalarının üzərinə atmaq üçün edilən zəif cəhd idi. Reallıq isə ondan ibarətdir ki, siyasi oyunları quran da, bu oyunların sonunda uduzan da Makronun özüdür. Pensiya islahatındakı inadkarlığı parlamentdəki çoxluğu itirməsinə baxmayaraq, dialoqdan imtina etməsi və cəmiyyəti dinləməməsi onu dalana dirəmişdi. İndi isə o, siyasi sağ qalması üçün əsas prinsiplərindən imtina edərək, bir zamanlar xor baxdığı siyasi qüvvələrin girovuna çevrilib. Və bu proses Fransanın gələcəyi üçün dərin qeyri-müəyyənlik yaradır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Eçmiədzinin "toxunulmazlıq" mifi dağılır

**Tarixən erməni və Azərbaycan xalqları arasında nifaq salınmasında, milli ədavətin qızışdırılmasında, sonda qanlı etnik münaqişənin baş verməsində müstəsna rol oynamış Erməni Apostol Kilsəsi indi də bu mənfur əməllərindən əl çəkmir.**

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisindəki alban kilsələrini həyasızcasına "qədim erməni dini-mədəni irs nümunələri" adlandıran kilsə rəhbərliyi bu istiqamətdə təbliğat aparır, guya, həmin abidələrin dağıdıldığını iddia edir. Kilsənin fəaliyyətinin mühüm bir istiqamətini də "milli xəyanət"də ittiham etdiyi baş nazir Nikol Paşinyan hökumətinə qarşı mübarizə aparmaq təşkil edir. Din xadimi adlanan bu məxluqlar hesab edirlər ki, Paşinyan təslimçi, xəyanətkardır, Qarabağı Azərbaycana "təslim edib", guya, erməni xalqının milli maraqlarına zidd addımlar atır və sair.

Məhz bu yanaşma səbəbindən İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra kilsə rəhbərliyi, konkret olaraq, katolikos II Qareginlə Paşinyan arasında münasibətlər pisləşib. Bu ilin mayından isə əlaqələr kəskin ziddiyyətli dövrə qədəm qoyub. Paşinyan katolikosun ünvanına bir sıra sərt, lakin gerçək fikirlər səsləndirib. Katolikosun, yepiskop və arxiyepiskopların, diakonların yarıtmaz əməllərini, cübbəyə bürünərək çıxdıqları, çıxardıqları oyunları faktlarla ortaya qoyub. Keşişlər isə öz növbələrində, necə deyərlər, hücuma keçərək ölkədə qarışıqlıq salmaq, təxribatlar törətmək istiqamətində fəaliyyət göstərirlər. Ancaq Ermənistan hüquq-mühafizə orqanları da önləyici addımlar ataraq, təxribatçı-pozucu qüvvələri neytrallaşdırırlar.

Burada bizim üçün xüsusilə önəmli olan erməni din xadimlərinin Azərbaycandan "qisas almaq", revanşist düşüncələrdə olmalarıdır. Onlar Ermənistan daxilində bu cür düşünən qüvvələrlə bir sırada addımlayırlar. Oktyabrın 15-də hayların "Araqaçotn" adlandırdıqları Kərkibasar mahalının yeparxiyasının rəhbəri yepiskop Mkrtiç Proşyanın evində axtarış aparılıb. II Qareginin qohumu olan yepiskop, həmçinin, Sağmosavank monastırının ruhani rəhbəri, keşiş Paren Arakelyan həbs ediliblər. Daha sonra yayılan xəbərdə saxlanılan keşişlərin sayının 6-ya çatdığı bildirilib. Vəkil Ara Zohrabyan saxlanılanların hamısının Kərkibasar yeparxiyasının nümayəndələri olduğunu bildirib. Keşiş Paren Arakelyandan əlavə daha 5 keşiş və bir neçə mülki şəxs Ermənistan İstintaq Komitəsinə aparılıb.



## *Keşiş libaslı siyasətbazların iflası yaxınlaşır*

İstintaq Komitəsinin yayadığı məlumatda isə bildirilib ki, qanunsuz mitinqlərin keçirilməsinə, zorakılığa məcbur etmək məqsədilə səlahiyyətlərindən və ya xidməti imkanlarından istifadə etməklə Araqatsotn dini dairəsinin rəhbəri və 6 din xadimi, eləcə də mülki şəxslər saxlanılıb. Bundan əlavə, fakt üzrə cinayət işinin ilkin araşdırması çərçivəsində zəruri istintaq və sübut tədbirləri həyata keçirilir. Əlavə olaraq rəsmi məlumat veriləcəyi bildirilib.

***

Beləliklə, Ermənistanda oktyabrın 15-də Kərkibasar yeparxiyasının rəhbəri Mkrtiç Proşyanın evində aparılan axtarış və bir neçə keşişin saxlanılması faktı ölkənin ictimai-siyasi həyatında uzun illər toxunulmaz kimi təqdim olunan bir sahəyə – kilsəyə yönəlmiş addım kimi diqqət çəkir. Bu hadisə təsadüfi deyil. Ermənistan hakimiyyəti çoxdan anlayır ki, dini institutlar artıq mənəviyyatın deyil, siyasi ambisiyaların mərkəzinə çevrilib və dövlətin idarəetmə sisteminə maneə yaradır.

Kilsə rəhbərliyinin son illərdəki fəaliyyəti göstərir ki, Eçmiədzin artıq dini mərkəz olmaqdan çox, müəyyən siyasi dairələrin təsir alətinə çevrilib. Mkrtiç Proşyan və onun ətrafının qanunsuz mitinqlərin təşkilində, zorakılıq çağırışlarında iştirakı ilə bağlı iddialar da bu mənzərənin bir hissəsidir. Özünü dini lider adlandıran şəxslərin, əslində, siyasi intriqaların iştirakçısına çevrilməsi həm dövlət institutları, həm də cəmiyyət üçün təhlükəli tendensiyadır. Son illər Ermənistan kilsəsinin fəaliyyətində müşahidə olunan əsas cəhət onun sistematik şəkildə dövlətlə qarşıdurmaya meyilli olmasıdır. Ən kiçik ictimai hadisə belə kilsə tərəfindən hökumət əleyhinə kampaniyaya çevrilir. Ruhanilərin bir hissəsi dövlət siyasətini dini dəyərlərlə ziddiyyət kimi təqdim etməyə çalışır, bu isə kütlələrdə çaşqınlıq yaradır. Halbuki, müasir dövlətlərdə kilsənin vəzifəsi ictimai sabitliyə töhfə verməkdir, siyasi mübarizənin bir hissəsinə çevrilmək deyil.

Mkrtiç Proşyanın və Paren Arakelyanın saxlanılması bu mənada dövlətin gecikmiş, amma zəruri addımıdır. İllərdir ki, kilsə rəhbərliyi ruhanilərin toxunulmazlıq statusundan sui-istifadə edərək özünü cəmiyyət üzərində hakim qurum kimi təqdim edir. Halbuki, dini rəhbərlik ölkədə baş verən sosial və mənəvi tənəzzülə görə birinci növbədə məsuliyyət daşımalıdır. Ermənistanda artan miqrasiya, ailə institutunun zəifləməsi, sosial bərabərsizlik kimi problemlər fonunda kilsə bu məsələlərə diqqət ayırmaq əvəzinə, siyasi proseslərə qarışmağı üstün tutur.

Bu gün Ermənistanın dini sistemi faktiki olaraq korrupsiya və şəxsi maraqlar əsasında formalaşıb. Ruhanilər içərisində var-dövlət toplamaq, ianə kampaniyalarından və kilsə torpaqlarından gəlir əldə etmək adi hala çevrilib. Məhz buna görə də sadə vətəndaş üçün kilsə artıq mənəvi mərkəz deyil, imtiyazlı bir təbəqənin rəmzidir. Belə vəziyyətdə dövlətin dini strukturları nəzarətə götürməsi və qanunsuzluqlara qarşı hüquqi addımlar atması tamamilə əsaslıdır.

Erməni cəmiyyətində uzun müddət davam edən bir yanlış stereotip var ki, guya, kilsəyə toxunmaq milli kimliyə qarşı çıxmaq deməkdir. Bu yanaşma ölkəni bugünkü böhran vəziyyətinə gətirib. Kilsə nəinki milli birliyin qoruyucusu rolunu itirib, hətta bəzən bu birliyi parçalamağa xidmət edən fəaliyyətlərə yol açıb. Kərkibasar yeparxiyasının nümayəndələrinin dövlət orqanları tərəfindən saxlanılması məhz bu səbəbdən mühüm dönüş nöqtəsi ola bilər. İstintaq Komitəsinin açıqlamasında qeyd olunan "səlahiyyətlərdən sui-istifadə" ifadəsi kilsə daxilindəki uzunmüddətli nizam-intizam pozuntularına işarədir. Ruhanilərin bir qismi dini statusdan istifadə edərək öz bölgələrində siyasi təbliğat aparır, hökumət əleyhinə çağırışlar səsləndirir, insanları etirazlara qoşulmağa təşviq edir. Bütün bunlar isə dini fəaliyyətin mahiyyətinə tam ziddir.

Əslində, Ermənistan hökumətinin bu addımı dini azadlıqlara qarşı deyil, dini məsuliyyətsizliyə qarşı yönəlib. Dövlət üçün əsas məqsəd dinin siyasi alətə çevrilməsinin qarşısını almaqdır. Çünki kilsə siyasətə qarışdıqca, cəmiyyətin dəyərləri daha da təhrif olunur. Paşinyan hökumətinin atdığı addım kilsənin öz funksional çərçivəsinə qaytarılması üçün vacibdir. Əgər bu prosesi davam etdirmək mümkün olarsa, Ermənistan cəmiyyəti uzun illərdir üzləşdiyi mənəvi böhrandan qurtula bilər.

**Politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, din xadimi adlanan bu şəxslərin həbsi, bəzilərinin gözündə sərt addım kimi görünsə də, əslində, bu, kilsə daxilində uzun müddət yığılıb qalmış problemlərin təmizlənməsi prosesidir. Onun sözlərinə görə, kilsə rəhbərliyi



illərdir ki, siyasi proseslərə təsir etməklə, hətta seçkilər zamanı müxtəlif namizədlərə gizli dəstək verməklə məşğuldur: "Bu fəaliyyət həm dövlətin dünyəvi xarakterinə, həm də cəmiyyətin mənəvi balansına zərbə vurur. Paşinyan hakimiyyətinin qarşısında duran əsas məsələ kilsəni dövlətin idarəetmə sisteminə tabe etdirmək deyil, onu real dini institut kimi bərpa etməkdir. Çünki dini strukturlar siyasi alətə çevrildikdə onların nüfuzu qaçılmaz şəkildə itir. Kilsə bu gün Ermənistan üçün nə mənəvi dayaqdır, nə də birləşdirici amil. Əksinə, o, müxtəlif qrupların mübarizə meydanına çevrilib.

Mkrtiç Proşyan və onun tərəfdarlarının həbsinə verilən ictimai reaksiya göstərir ki, cəmiyyətin bir hissəsi artıq kilsənin əvvəlki mövqeyini qəbul etmir. İnsanlar dini liderlərin siyasi bəyanatlarından, maddi maraqlarından, təmtəraqlı həyat tərzindən bezib. Dəyişən ictimai münasibət kilsənin öz daxilində islahatlara məcbur edəcək. Əks halda, dövlətin hüquqi mexanizmləri bu boşluğu dolduracaq".

Politoloq bu fikirdədir ki, Kərkibasar yeparxiyasına qarşı aparılan istintaq tədbirləri Ermənistanın mənəvi həyatında dönüş nöqtəsidir. Hakimiyyətin bu addımı təkcə konkret şəxslərə yönəlməyib, həm də bütövlükdə dini strukturların məsuliyyətini gündəmə gətirib. Ermənistanın gələcəyi üçün kilsənin dövlətin deyil, cəmiyyətin mənəvi inkişafına xidmət edən, amma siyasətdən uzaq duran bir quruma çevrilməsi vacibdir.

***Səxavət HƏMİD***
***XQ***

# Hibrid müharibələr dövrünün müdafiə konsepsiyası

**"Qoca qitə" uzun illərdir təhlükəsizlik konsepsiyalarının laboratoriyası hesab olunur. İstər miqrasiya, istər enerji, istərsə də texnoloji təhdidlər Avropa İttifaqını (Aİ) yeni müdafiə modelləri yaratmağa sövq edir. İndi isə qitənin siyasi gündəminə "dron divarı" adlı təşəbbüs daxil olub. Avropa Komissiyasının son təklifi bu ideyanı daha geniş miqyasda, "Avropa Dron Müdafiə Təşəbbüsü" formasında, bütün qitəni əhatə edən müdafiə sistemi kimi təqdim edir. Təşəbbüs ilk baxışdan texnoloji layihə təsiri bağışlasa da, əslində, Avropanın təhlükəsizlik arxitekturasının yenilənməsi prosesinin tərkib hissəsidir.**




Məsələ pilotsuz uçuş aparatlarının yaratdığı risklər səbəbindən Avropanın öz strateji muxtariyyətini möhkəmləndirmək istəyi ilə daha da qloballaşıb. Yada salaq ki, bir vaxtlar dəmir pərdə adlanan siyasi və ideoloji sədlər Avropanı iki düşərgəyə ayırmışdı. İndi isə qitə başqa bir "divar" anlayışı ilə üz-üzədir. "Dron divarı" ideyası Aİ-nin şərq sərhədlərində, Baltik dənizindən Qara dənizə qədər hava məkanının qorunması məqsədilə təklif edilib. Lakin planın təkcə şərq xətti ilə məhdudlaşdırılması Cənubi və Qərbi Avropa ölkələrində narazılıq doğurub. Onlar haqlı olaraq bildirirlər ki, müasir təhlükələr coğrafiya tanımır, dronlar, kibertəhdidlər hər bir bölgə üçün potensial risk yaradır. Bu səbəbdən Avropa Komissiyası planı "divar" anlayışından çıxararaq onu bütün qitəni əhatə edən "Avropa Dron Müdafiə Təşəbbüsü"nə çevirmək qərarına gəlib. Təşəbbüs çərçivəsində sensorlar, radioelektron müdaxilə sistemləri və müdafiə texnologiyalarından ibarət vahid şəbəkə yaradılması nəzərdə tutulub ki, bu da qitənin hava məkanında "rəqəmsal qalxan" formalaşdırmaq cəhdidir.

### Siyasi mesajlar

Layihəyə, sadəcə, təhlükəsizlik nöqteyi-nəzərindən yanaşmaq düzgün olmaz. Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin təşəbbüsü şəxsən irəli sürməsi təsadüfi deyil. O, bu yolla həm Aİ-nin müdafiə məsələlərində birləşmə potensialını nümayiş etdirmək, həm də qurumun texnoloji müstəqilliyini möhkəmləndirmək istəyir. Qitə çoxdan dərk edib ki, müdafiə sahəsində uzunmüddətli sabitliyi yalnız NATO-nun çətiri altında davam etdirmək mümkün deyil. Qitə öz resursları hesabına təhlükəsizlik arxitekturasını formalaşdırmağa məcburdur. Dron təhlükələrinə qarşı vahid şəbəkə bu istiqamətdə atılan ilk real addımlardan biri sayıla bilər. Həmçinin "divar" Avropa sənaye sektorunun müdafiə texnologiyaları üzrə yeni mərhələyə keçməsinə zəmin yaradır. Çünki dron əleyhinə sistemlər, sensor şəbəkələri, elektron müdaxilə cihazları və süni intellekt əsaslı izləmə alqoritmləri Avropanın texnoloji bazarında yeni rəqabət mühiti formalaşdırmağa qadirdir. Əvvəl də qeyd etdiyimiz kimi, ilk mərhələdə layihənin yalnız Şərqi Avropa istiqamətində nəzərdə tutulması müəyyən balanssızlıq yaratmışdı. Baltikyanı ölkələr, Polşa və Rumıniya kimi dövlətlər təşəbbüsü böyük həvəslə dəstəkləsə də, İtaliya, Fransa, İspaniya layihənin onların hava təhlükəsizliyini ikinci plana atdığını bildirdi. Ona görə də yeni versiyada məqsəd bütün Avropanı vahid hava təhlükəsizliyi məkanına çevirməkdir. Çünki Aİ daxilində bərabər təhlükəsizlik hissinin yaranması birliyə olan inamı gücləndirəcək. Digər tərəfdən, Avropa daxili bütövlüyünü qorumaq üçün bu yola əl atır. Artıq bir neçə ildir ki, Aİ daxilində "ikisürətli Avropa" anlayışı müzakirə olunur, yəni inkişaf etmiş və zəif inteqrasiya olunmuş ölkələr arasında fərqlər artır. "Dron müdafiə şəbəkəsi" isə bu fərqləri azaldaraq bütün regionları eyni təhlükəsizlik sisteminə bağlamağı hədəfləyir. Yeni təşəbbüs Avropanın müdafiə konsepsiyasının dönüş nöqtəsi ola bilər. Əgər plan uğurla həyata keçirilərsə, o zaman Avropa ilk dəfə kontinental miqyasda inteqrasiya olunmuş texnoloji təhlükəsizlik sistemi qurmuş olacaq. Bu, həm də qitənin gələcək müdafiə strategiyasının əsasını təşkil edə bilər.

### İqtisadi amil

Layihənin iqtisadi tərəfi də az əhəmiyyət daşımır. Müdafiə sənayesinə qoyulacaq yeni investisiyalar, yüksək texnoloji istehsal zəncirlərinin formalaşması və elmi-tədqiqat layihələrinin genişlənməsi qitədə innovasiyanın ritmini sürətləndirəcək. Avropa şirkətləri üçün bu təşəbbüs həm sifariş, həm də təcrübə meydanıdır. "Qoca qitə"nin "yaşıl keçid" strategiyası kimi, dron müdafiə şəbəkəsi də təhlükəsizlik və texnologiya baxımından birləşdirici ideya olacaq. Bununla yanaşı, layihə Avropanın müdafiə sənayesində vahid standartların yaradılmasını da təşviq edəcək. Müxtəlif ölkələrdə istifadə olunan texnologiyaların bir sistem daxilində işləməsi həm koordinasiyanı asanlaşdıracaq, həm də xərcləri azaldacaq. Bu təşəbbüs müdafiə sənayesində yeni bazar yaradacaq. Hazırda bu sektorun böyük hissəsi digər ölkələrin nəzarətindədir. "Dron divarı" isə Avropa sənayesinə daxili rəqabət və istehsal təşviqi gətirəcək, yerli şirkətləri yüksək texnoloji avadanlıqların tədarükçüsünə çevirəcək. Nəticədə, yeni iş yerləri açılacaq, regional iqtisadi fərqlər azalacaq, xüsusilə Şərqi Avropa ölkələrində sənaye inkişafı sürətlənəcək. Eyni zamanda, təşəbbüs qitədə "ağıllı sistemlər" erasını açacaq. Radar və dron izləmə texnologiyalarının tətbiqi ilə Avropa özünün müdafiə sənayesini NATO standartlarından daha müasir, çevik və avtonom səviyyəyə qaldıra bilər. Bu sistemlərin hazırlanmasında Almaniya, Fransa, Polşa və Baltik ölkələrinin texnoparkları, eləcə də startap ekosistemləri birgə fəaliyyət göstərəcək. Təhlükəsizlik layihələri adətən büdcəyə yük kimi qəbul olunur. Lakin Avropa Komissiyasının təşəbbüsü fərqli mexanizmlər üzərində qurulub. Layihə dövlət vəsaiti ilə yanaşı, özəl sektor, müdafiə şirkətləri və texnoloji konsorsiumların ortaq maliyyələşdirməsi ilə həyata keçiriləcək. Bu, həm dövlətin xərclərini azaldacaq, həm də layihəni öz-özünü təmin edən iqtisadi modelə çevirəcək.

### Müqayisələr

"Avropa Dron Müdafiə Təşəbbüsü" ilk baxışda NATO-nun 2022-ci ildə elan etdiyi "European Sky Shield Initiative" (ESSI) layihəsini xatırladır. Almaniyanın təşəbbüsü ilə yaradılan "Sky Shield"in məqsədi Avropa ölkələri arasında hava hücumundan müdafiə sistemlərini koordinasiya etmək idi. Fərq ondadır ki, "Sky Shield" əsasən raket və ballistik hücumlara qarşı nəzərdə tutulmuşdu. "Dron Müdafiə Təşəbbüsü" isə daha çevik və lokal xarakter daşıyır. Əslində, iki sistem bir-birini tamamlayır. Əgər "Sky Shield" strateji "qalxan" funksiyasını yerinə yetirirsə, "Dron Müdafiə Təşəbbüsü" taktiki səviyyədə "filtr" rolunu oynayacaq. Beləcə, Avropa hava təhlükəsizliyində çoxsəviyyəli müdafiə modelinə keçid edə bilər. Bu da onu göstərir ki, qitə artıq müdafiə sistemini "böyük müharibə" anlayışı ilə yanaşı, hibrid təhlükələr və texnoloji kəşfiyyat vasitələri üzərində qurur. Ən çox diqqətçəkən müqayisə isə təbii ki, İsrailin məşhur "Iron Dome" (Dəmir Qübbə) sistemi ilə aparılır. "Iron Dome" 2011-ci ildən etibarən İsraili qısaməsafəli raketlərdən və artilleriya mərmilərindən qoruyur. Sistem həm radar, həm süni intellekt, həm də avtomatik cavab texnologiyalarını özündə birləşdirir. Lakin İsrailin layihəsinin məqsədi fərqlidir. "Iron Dome" bir dövlətin ərazisini qoruyur, "Drone Defence Initiative" isə bütün qitəni, müxtəlif texnoloji və siyasi sistemləri bir şəbəkədə birləşdirməyi hədəfləyir. Bu isə daha çətin, amma strateji baxımdan dəyərli missiyadır. Çünki Avropa 27 müxtəlif dövlətin təhlükəsizlik infrastrukturunu koordinasiya etməlidir.

Beləliklə, Aİ-nin "Dron divarı" ideyasını bütöv bir geosiyasi manifest kimi dəyərləndirmək mümkündür. Nəzərə alsaq ki, XXI əsrin müharibələri tank və toplardan çox məlumat, rabitə və pilotsuz sistemlər üzərində aparılır, Avropa da öz sərhədlərini bu yolla möhkəmləndirir. Cənubi və Qərbi Avropa ölkələrinin narahatlıqları, regional prioritetlərin balanslaşdırılması və büdcə məsələləri bu təşəbbüsün taleyini müəyyən edəcək. Əgər Brüssel bu mexanizmi bütün qitəni əhatə edən inklüziv və adaptiv sistemə çevirə bilsə, "Dron divarı" qitənin təhlükəsizlik tarixində yeni mərhələnin başlanğıcı olacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Türk dünyasında elmin perspektivləri: AMEA-nın yeniləşmə kursu kontekstində



## II MƏQALƏ

### Üç istiqamətin sintezi

Özlüyündə Türk dünyası kimi geniş məkanın elmi obrazı mürəkkəb və çox sayda komponentin nəzərə alınmalı olduğu məfhumdur. Bu baxımdan AMEA-nın yeniləşmə kursunun 7 prioritet istiqamətlərinin hər birinin bu məsələyə aidiyyəti vardır. Onu vurğulayaq ki, AMEA-nın yeniləşmə kursunun təşəbbüskarı, ümumi istiqamətlərin müəyyənedicisi, aparıcı və idaredici gücü, təşkilatçısı və praktiki reallaşmasının rəhbəri təşkilatın prezidenti, akademik İsa Həbibbəylidir.

Lakin biz qəzet formatını nəzərə alaraq ümumi səviyyədə yalnız 3 prioritet istiqamətin qarşılıqlı əlaqəsi kontekstində Türk dünyasının elmi obrazının yaradılması aktuallığı və zərurətinə nəzər salacağıq.

Həmin prioritet istiqamətlərdən ikisini bu mövzuya aid öncəki məqalədə vurğulamışıq. Bu dəfə onlar barədə ayrıca söz açırıq.

### Birinci istiqamət: ümumi strateji yol

Azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi çox əsaslı olaraq birinci prioritet istiqamət kimi müəyyən edilmişdir. Azərbaycançılıq müasir Azərbaycan sosiohumanitar elminin "Ana magistralı" olmalıdır. O, həm elmi fəaliyyətin müəyyənedici və idarəedici başlıca parametri, həm də bütövlükdə elmi prosesin "strateji fonudur". Azərbaycançılıq elmi təfəkkürün sosial-humanitar aspektdə "ümumiyyətlə, koqnitiv fakt kimi ideya statusunda nizamlayıcı parametri funksiyasını da yerinə yetirməlidir. Bu müddəanın ciddi elmi, şüuri, siyasi və geosiyasi-mədəni əsasları vardır.

Anlayırıq ki, bütövlükdə mürəkkəb elmi terminologiya bütöv mənzərəni də mürəkkəbləşdirir və sadə anlama əngəl yaradır. Ancaq bizim üçün azərbaycançılığın artıq məhz yüksək fəlsəfi-məntiqi səviyyədə təhlili, təqdimatı və həmin baxımdan ümumi konseptual obrazının yaradılması zamanı yetişmişdir. Bunun hazırda ən səmərəli reallaşdırılma məkanı isə AMEA və onun yeniləşmə kursunun prioritet istiqamətlərinin nəzəri, metodoloji və praktiki-tətbiqi özəllikləridir.

O başqa məsələdir ki, bu cür təqdimat ilk vaxtlarda müəyyən kəsimlər üçün "mürəkkəb fon" təsiri bağışlaya bilər. Buna görə də elmi yaradıcı dairələrin sözün həqiqi mənasında "elmi təfəkkürün kəmərlərini bərkitməsi" lazım gələcəkdir.

AMEA-nın idraki (koqnitiv) aspektdə müəyyən etdiyi bu ciddi və əhatəli təfəkkür "inqilabı" (bu, prinsipial məqamdır, çünki AMEA-nın yeniləşməsinin ümumi çərçivəsini Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf kursu müəyyən edir və elmi təfəkkürdə "inqilab" onun yalnız bir aspektini təşkil edə bilər) bütövlükdə müasir mərhələdə Azərbaycanda yaradıcılıq fəlsəfəsi və alınan nəticələrin səmərəli tətbiqi kontekstində ciddi dəyişikliklər etmək üçün kifayət qədər kreativ potensiala malikdir. Bu yanaşma çərçivəsində azərbaycançılığı sosiohumanitar elmlər üçün ümumi fon, AMEA-nın yeniləşmə kursunu isə o fonda ciddi motivəedici "fiqur" olaraq təsəvvvür edə bilərik.

Məsələnin elmi tərəfi onunla bağlıdır ki, müasir tədqiqatlara əsasən hər bir dövlət üçün sosial-mədəni, texnoloji, iqtisadi, ekoloji və s. çağırışlarla yanaşı, qlobal geosiyasi çağırış da meydana gəlmişdir. Bu kompleks və qeyri-standart təsirlər geniş anlamda süni sosial reallıq yaratmaqdadır. Burada "geniş anlamda" ifadəsi süni sosial reallığın faktiki olaraq çağdaş cəmiyyətlərin bütün sferalarında öncəki mərhələlərdə görünməmiş keyfiyyət və funksional dəyişikliklər əmələ gətirməsini ifadə edir. Bu tezis kontekstində AMEA-nın yeniləşməsinin II prioritet istiqaməti üzərində dayanaq.

### İkinci istiqamət: Türk dünyası üzrə tədqiqatların miqyası

AMEA-nın yeniləşməsinin II prioritet istiqamətinin hansı səbəblərdən Türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsi, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsi kimi müəyyən edildiyi izah olunmalıdır.

Şübhəsiz ki, burada əsas müəyyənedici və istiqamətverici məqam Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Andiçmə mərasimində Türk dünyası ilə əlaqələri ölkəmizin ən mühüm prioritetlərindən biri kimi müəyyən etməsidir. Onun çətiri altında birbaşa elmi yaradıcılıq və elmi fəaliyyətin təşkilinin çox müxtəlif aspektləri ilə bağlı olan aktual məsələlərin elmi təhlilinə ehtiyac vardır.

Əvvəlcə, ideya baxımından vacib olan bir özəlliyi vurğulayaq. I və II prioritet istiqamətin izahı çox maraqlı şəkildə III prioritetin mahiyyəti, məzmunu və funksional özəllikləri ilə bağlıdır. III prioritet istiqamət nəzəri, sosial və ideya kontekstlərində I və II prioritetlərin həm aktuallığını artırır, həm də onları məzmun və məqsədcə bir-biri ilə əlaqələndirir. On görə də II prioritet istiqamətin izahından sonra III istiqaməti təhlil etmək zərurəti vardır.

Azərbaycançılığın I prioritet kimi müəyyən edilməsi fonunda Türk dünyası ölkələrinin elmi təşkilatları ilə əlaqələrin genişləndirilməsi və bu prosesin xüsusi formada aparılması bir neçə zəruri məqamdan irəli gəlir.

Hər şeydən öncə, Azərbaycan dövlət və cəmiyyət olaraq XXI əsrdə Türk dövlətləri və toplumları ilə əlaqələri sosial, mədəni, ictimai və sair səviyyədən dövlətlərarası inteqrasiya miqyasına yüksəltməyi strateji məqsəd kimi müəyyən etmişdir. Bunun siyasi, geosiyasi, tarixi və ideoloji aspektləri haqqında çox yazılmış və dəyərli fikirlər irəli sürülmüşdür. Eyni zamanda, qlobal miqyasda müşahidə edilən yeni sosial çağırışlar fonunda məsələnin bu tərəfinin aktuallığı daha aydın görünməyə başlamışdır.

Başqa tərəfdən, indiyə qədər heç zaman Azərbaycan elmi sferada birbaşa Türk dünyası ilə sistemli, strateji hədəfi olan və davamlı əlaqələr qurmamışdır. O baxımdan türk dövlətlərinin elmi təşkilatları bir-birilərini "lazımi səviyyədə görə bilmirlər". Bu olmadan isə türk dövlətlərinin real inteqrasiyasından danışmağın anlamı yoxdur.

Nəhayət, Türk dünyasının elmi təşkilatlarının ən müasir mövzular üzrə tədqiqat aparmaqda yaradıcılıq, elmi fəaliyyətin təşkili və alınan nəticələrin tətbiqinin ümumi fəlsəfəsinə əməl edilməsinə böyük ehtiyac vardır.

Bu qısa təqdimat belə göstərir ki, Türk dünyası üzrə tədqiqatların miqyası məsələsi ciddi olduğu qədər də mürəkkəb məfhumdur. Nəzəri olaraq hansısa tezis irəli sürmək olar. Lakin əgər biz doğrudan Türk dünyasının inteqrasiyasını istəyiriksə, onda elmi kontekstdə son dərəcə ciddi və diqqətli olmalıyıq. AMEA-nın yeniləşmə kursunun II prioritet istiqaməti məhz bu ciddiliyi, aktuallığı və mürəkkəbliyi ölkə elmi camiəsinin gündəminə fərqli səviyyədə təqdim edir. Həmin səviyyə iki alt sferadan ibarətdir.

### Milli miqyasda elmin tərəqqisi

Çağdaş dünyada elmin cəmiyyət üçün arxivacibliyindən danışmaq adi hal kimi qəbul edilir. Sanki hamı bilir və tam əmindir ki, elə belə də olmalıdır. Və ya müasir dünyanın ontoloji xüsusiyyətləri həmin fikri aydınca ortaya qoyur. Azərbaycanlılar demişkən, "görünən dağa bələdçi lazım deyil"! Daha təəccüblü və əsassız qəbul edilən fikir "milli miqyasda elmin tərəqqisinə ehtiyac yoxdur" tezisidir. Buna müasir insanların reaksiyası çox həssaslıqla olur. Amma və lakin...

Məsələ ondan ibarətdir ki, həmin tərəqqiyə necə nail olmağın səmərəli yolunu heç də hər bir cəmiyyətdə və dövlətdə müəyyən edə bilmirlər. Bizcə, bunun əsas səbəbi milli miqyasda elmin tərəqqisinə yalnız ölkədaxili şərtlər prizmasında yanaşmaqla bağlıdır. Bu isə müasir yüzildə məhdud yanaşmadır və bütövlükdə situasiyanı adekvat əks etdirə bilmir. Məharətli və heyrətamiz şəkildə milli miqyasda elmin inkişafına həm də regional və qlobal kontekstin sintezində yanaşmaq zəruridir.

Deməli, ölkədaxili mühitdə elmin tərəqqisi mütləq şəkildə hazırda "kənar mühitin" özəllikləri ilə vahid məntiqi çərçivədə dərketməni, təhlili və nəticə alınmalarını tələb edir. AMEA-nın müəyyən etdiyi I və II prioritet istiqamətləri bu məhdudluğu aradan qaldırır, yaradıcı və təşkiledici fikrin passionarlığını daha geniş sərhədlərdə fəaliyyət üçün fokuslandırır. Sosiohumanitar elmlər üçün bu prosesin ideya sərhədini Azərbaycançılıq, geosiyasi məkan əhatəsini isə Türk dünyası təşkil edir. Buradan ikinci altsferanın müəyyən edilməsinə məntiqi keçid vardır.

### Türk dünyasında elmin tərəqqisi

Milli miqyasdan Türk dünyası səviyyəsinə elmi tərəqqinin proyeksiyası vacibdir. İkinci altsfera daha geniş koqnitiv, metodoloji və yanaşma nümunələri tələb edir. İndi praktiki olaraq TDT-yə üzv olan heç bir ölkə ayrıca davamlı elmi tərəqqiyyə nail ola bilməz. Burada mütləq surətdə təşkilat miqyasında əhatəli və dərin düşünülmüş əməkdaşlığa böyük ehtiyac yaranmışdır. Bu baxımdan Qəbələdə TDT-nin ortaq elmi layihələrinin də gündəmə gətirilməsi son dərəcə əhəmiyyətli işdir. Məsələn, türk dövlətlərinin bir yerdə süni peyk yaratmaq qərarına gəlmələri, təhsildə inteqrasiya istiqamətində yeni addımlar atılmasını və elmi sferada əlaqələri prinsipial olaraq yeni səviyyə yüksəltmək əzmləri vurğulanan mənada strateji mahiyyətlidir. Məhz indi TDT üçün aktual olan bu kimi elmi məsələlərin prizmasında AMEA-nın prioritet istiqamətləri başqa yöndən əhəmiyyətli və ümumnəzəri əsası təmin edə biləcək nümunə təsiri bağışlayır. Hətta həmin prirotetlər TDT-nin elmi tərəqqisi kontekstində Azərbaycanı strateji mövqeyə çıxarır.

Bu məqamda fikrin inkişafı üçün III prioritet istoqamətin izahına baş vurmaq lazım gəlir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***




# Azərbaycan sosial rifah ölkəsidir

**(əvvəli 1-ci səhifədə)**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə verilən məlumatda bildirilir ki, sosial ödənişlərin davamlı olaraq artırılması dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Prezidentin imzaladığı fərman və sərəncamlarla son 22 ildə bu istiqamətdə ciddi addımlar atılıb. Ötən dövrdə minimum əməkhaqqı 44,4 dəfə artırılaraq 400 manata, minimum pensiya 16 dəfə yüksəldilərək 320 manata çatdırılıb. Orta aylıq əməkhaqqı 14,2 dəfə artaraq 77 manatdan 1093,8 manata, orta aylıq pensiya 22,6 dəfə çoxalaraq 539 manata, yaşa görə orta aylıq pensiya 23,1 dəfə qaldırılaraq 574 manata çatıb.

2018-2025-ci illərdə dövlət başçısı İlham Əliyevin tapşırıqları əsasında 5 sosial islahat paketi icra olunub. Ümumilikdə, 4 milyondan çox vətəndaşı əhatə edən bu islahatların hər biri üzrə illik əsasda ayrılan əlavə vəsaitlərin ümumi məbləği 7,6 mlrd. manatdır. Beləliklə, 2018-ci ildən ötən dövrdə minimum əməkhaqqında 3,1 dəfə, orta aylıq əməkhaqqında 2 dəfə, əməkhaqqı fondunda 3,2 dəfə, minimum pensiyada 3 dəfəyə yaxın, orta aylıq pensiyada 2,6 dəfə, müavinət və təqaüd ödənişlərinə ayrılan illik vəsaitdə 5 dəfə, ünvanlı sosial yardlımın orta aylıq məbləğində 2,5 dəfə artım olub. Pensiya ödənişlərinə ayrılan illik vəsait son 7 ildə 2 dəfə artaraq 7,2 mlrd. manatı ötüb. Həmçinin 10 yeni sosial ödəniş növü təsis olunub.

Son illər pensiya təminatında bir sıra humanist yanaşmalar tətbiq edilib, sosial dəstəyə əlçatanlığı artırmaq üçün mühüm addımlar atılıb. 2019-cu ildən pensiya təyinatı proaktiv mexanizm üzərində qurulmaqla, 2006-2018-ci illərdə fərdi hesabında hətta ən kiçik məbləğdə vəsait qeydə alınmış şəxsə 25 illik sığorta stajı hədiyyə edilir və müraciət etməsinə ehtiyac qalmadan, elektron sistem üzərindən avtomatik olaraq yaşa görə pensiya təyin olunur. Eyni zamanda, erkən dövrdə yaşa görə pensiya hüququ yaranan kateqoriyaların sırası son illər əhəmiyyətli dərəcədə genişləndirilib.

Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlərlə təminatı proqramı uğurla davam etdirilir və möhtəşəm Zəfər əldə etdiyimiz Vətən müharibəsindən sonra 5 dəfə genişlənib. Postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 6900, ümumilikdə ötən dövrdə 16 min mənzil verilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 567, ümumən ötən dövrdə 7800 avtomobil verilib.

Uğurlu sosial islahatlar proqramının nailiyyətlərindən biri də dövlət başçısının müvafiq fərmanı ilə 2019-cu ildən ölkəmizdə yaradılan DOST mərkəzləridir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan və dünyanın qabaqcıl təcrübələri sırasına daxil edilərək çoxsaylı beynəlxalq mükafatlara layiq görülən DOST modeli vahid platformadan, "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğu və rahatlığı prinsipi əsasında əhaliyə 161 sosial xidmət təqdim edir. Artıq Bakı və bölgələrimizdə 7 DOST mərkəzi, "Smart DOST" xidmət məntəqəsi, 1 DOST məntəqəsi, 1 DOST filalı istifadəyə verilib. DOST mərkəzlərində ötən dövrdə 3,9 milyon vətəndaşa xidmət göstərilib. Bu xidmətlərdən vətəndaş məmnunluğunun 98,6 faizə çatması DOST modelinin uğurlu islahat nümunəsi olduğunu göstərir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan, Cənubi Qafqazda ilk və ən böyük inklüziv məkan olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi isə əlilliyi olan şəxslərin, şəhid ailələri və aztəminatlı ailələrin üzvlərinin, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların və digər həssas qrupların yaradıcı potensialının inkişafına önəmli dəstək verir. Mərkəzdə benefisiarlara rəqs, təsviri incəsənət, dulusçuluq, musiqi, dərzilik, xalçaçılıq, toxuma, bədii oyma, kulinariya, səhnə ifaçılığı və s. istiqamətləri üzrə təlimlər keçirilir, onlara sosial pedaqoji və psixoloji dəstək xidmətləri göstərilir. Ötən dövrdə Mərkəzdə və onun İsmayıllı və Bərdə rayonlarındakı filiallarında 800-dən çox şəxsə xidmət göstərilib.

Həssas qruplara, o cümlədən əlilliyi olan şəxslərə göstərilən diqqət və qayğı nəticəsində ötən dövrdə sosial xidmət və reabilitasiya müəssisələri şəbəkəsi də xeyli genişlənib. Əlilliyi olan şəxslər üçün Peşə Reabilitasiya Mərkəzi, İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi, Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, günərzi və icma əsaslı sosial reabilitasiya, sosial xidmət mərkəzləri şəbəkəsi, Sumqayıt, Şəki, Şirvan, Xaçmaz Naftalan, Lənkəran, Yevlax, Qəbələ, Şəmkir və digər bölgələrdə əlilliyi olan şəxslər üçün Reabilitasiya mərkəzləri yaradılıb.



Dövlət başçısının tapşırığına əsasən, son illər sosial xidmətlərinin elektron texnologiyalar üzərində qurulması proqramı uğurla icra edilərək əmək və məşğulluq, sosial müdafiə üzrə xidmətlərin 90 faizdən çoxu artıq rəqəmsallaşdırılıb. Sosial sahələr üzrə 60 proaktiv xidmət, 30-dan çox e-arayış xidməti yaradılıb. 2019-cu ildə ölkəmizin sosial reyestri olan e-sosial.az portalı, 2022-ci ildə vahid əmək münasibətləri platforması olan və əmək münasibətlərində rəqəmsal kadr uçotuna keçidə imkan verən "Əmək və Məşğulluq" altsistemi işə salınıb. Təkcə 2024-cü ildə əmək və məşğulluq, sosial müdafiə üzrə e-sistemlər üzərindən sorğu, müraciət və xidmət sayı 663 milyon olub.



Son illər ölkəmizdə aparılan uğurlu sosial islahatlar, o cümlədən DOST konsepsiyası və rəqəmsal xidmətlər 240-dan çox beynəlxalq mükafat və sertifikata layiq görülüb. Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı Azərbaycana qarşıdakı dövrdə də böyük tarixi uğurlar, möhtəşəm qələbələr, eyni zamanda vətəndaş rifahının təminatı sahəsində yeni sosial nailiyyətlər qazandıracaq.

***Mustafa KAMAL***
***XQ***

# Xankəndidə Milli Şəhərsalma Forumu




**(əvvəli 1-ci səhifədə)**

"İqliməd avamlı və sağlam şəhərlər naminə: regional tərəfdaşlıqlar və innovativ həllər" mövzusuna həsr olunmuş toplantı, həm də gələn il Bakıda keçiriləcək 13-cü Dünya Şəhər Forumuna (WUF13) aparan yolun bir hissəsi kimi nəzərdə tutulur. Xankəndi – Bakı formatında təşkil olunan 3 günlük forumdan məqsəd şəhərlərin iqlim dəyişikliklərinə davamlılığını artırmaq, sağlam və inklüziv urban inkişaf strategiyalarını təşviq etmək, həmçinin Qarabağ regionunun bərpası və dayanıqlı inkişafı üzrə beynəlxalq tərəfdaşlıqları gücləndirməkdir.

Açılış mərasimində BMT-nin İnsan Məskənləri Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudiya Rossbax çıxış edərək bildirib ki, Azərbaycanın şəhərsalma və iqlim davamlılığı təşəbbüsləri qlobal səviyyədə müsbət nümunə kimi qəbul olunur. Xankəndi forumunun 2026-cı ildə keçiriləcək 13-cü Dünya Şəhər Forumu ilə qlobal şəhər siyasətində dönüş nöqtəsinə çevriləcəyinə əminliyini ifadə edən icraçı direktorun sözlərinə görə, gələn il, həmçinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə 11-ci məqsədin ("Davamlı şəhərlər və icmalar") Qlobal İcmalı da təqdim olunacaq.

BMT rəsmisi əlavə edib ki, WUF13-ün mövzusu "Evi olan dünya: təhlükəsizlik və bərabərlik" olacaq və bu, mənzil və şəhər bərabərliyi məsələlərinə diqqəti artıracaq. Hazırda dünya üzrə, təxminən, 3 milyard insanın mənzil şəraitinin əlverişsiz olduğunu vurğulayan Anaklaudiya Rossbaxın sözlərinə görə, 1 milyarddan çox insan gecəqondu və ya qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır, 300 milyondan çox insan isə evsizdir. Qeyd olunub ki, 2023-cü ilin ortalarında Bakıda ölkə ofisini açan UN-habitat ötən müddətdə kompleks şəhər həllərinin tətbiqi üçün milli və yerli tərəfdaşlarla fəal əməkdaşlıq edir. O, həmçinin UNEP və IOM ilə birgə həyata keçirilən 10 milyon ABŞ dolları dəyərində Uyğunlaşma Fondu layihəsi çərçivəsində Xəzərsahili boyu iqlimə davamlı şəhər və icmaların yaradılmasında Azərbaycana dəstək verdiklərini diqqətə çatdırıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxışında bildirib ki, "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın əsas xüsusiyyətlərindən biri çoxmərkəzli inkişaf modelinin tətbiqidir. Onun sözlərinə görə, bu modelə əsasən, bütün fəaliyyətlərin bir mərkəzdə cəmlənməsi əvəzinə, Bakı şəhəri boyunca bir-biri ilə əlaqəli mərkəzlər və alt-mərkəzlər şəbəkəsi formalaşdırılır.

Sədr vurğulayıb ki, 2018-ci ildən Azərbaycan şəhərlərin Baş planlarının hazırlanması və mütəmadi yenilənməsi yolu ilə məkan inkişafına kompleks və uzunmüddətli yanaşma tətbiq edib: "Bu planların əksəriyyəti artıq tamamlanıb və yaxud icra mərhələsindədir, beynəlxalq ekspertlərlə əməkdaşlıq çərçivəsində hazırlanaraq qlobal standartlara uyğunlaşdırılıb. Bu gün Azərbaycan münaqişədənsonrakı bərpa modelini fəxrlə təqdim edir. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil – həyatların yenidən qurulması üçün yol xəritəsidir".

Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işlərinin dayanıqlı şəhərsalma modelinə əsaslandığını vurğulayan komitə sədri bildirib ki, Azərbaycan münaqişədənsonrakı bərpa və reinteqrasiyada özünəməxsus şəhərsalma modelini həyata keçirir, həm şəhər, həm də kənd yaşayış məntəqələri üçün hazırlanmış Baş planlar əsasında genişmiqyaslı yenidənqurma işləri aparılır.

Azərbaycan Respublikası Prezidentinin Xankəndi, Ağdərə və Xocalı rayonları üzrə xüsusi nümayəndəsi Elçin Yusubov çıxış edərək bildirib ki, bərpa edilən 19-dan çox yaşayış məntəqəsində 22 mindən yuxarı əhalinin yaşayışı təmin edilib. Onların 4 mindən çoxu məcburi köçkünlərdir. Hazırda ən prioritet məsələnin məşğulluğun təmin olunması ilə bağlı olduğunu diqqətə çatdıran xüsusi nümayəndənin sözlərinə görə, ötən müddətdə özəl investorlar tərəfindən regiona 65 milyon manat özəl investiya qoyulub, bunun hesabına 3 minə yaxın yeni iş yeri yaradılıb. Xankəndidə keçirilən forumu beynəlxalq əməkdaşlıq, "yaşıl enerji" və dayanıqlı inkişaf prinsiplərinin müzakirəsi üçün mühüm platforma kimi dəyərləndirən E.Yusubov deyib ki, bu, Qarabağın gələcək inkişafına yeni impuls verəcək.

Prezidentin Şuşadakı xüsusi nümayəndəsi Aydın Kərimov çıxışında şəhərdə müasir tipli mühəndis şəbəkəsi ilə yanaşı, bütün kommunikasiya xətlərinin qurulacağını diqqətə çatdırıb. Qeyd olunub ki, Şuşa şəhərində mövcud tarixi abidələr və digər infrastruktur elementləri nəzərə alınaraq işlər hissə-hissə yerinə yetirilir. Azərbaycanda analoqu olmayan Əhmədbəyli-Füzuli-Şuşa yolunun yaxın zamanlarda tam istifadəyə veriləcəyini bildirən xüsusi nümayəndənin sözlərinə görə, burada 7 tunel, 9 köprü inşa olunub. Qarşıdakı 2 il ərzində şəhərin küçə və yol şəbəkəsinin tamamilə yenidən qurulacağını vurğulayan A.Kərimov daha sonra bildirib ki, Şuşa ölkə ərazisində 100 faiz elektriklə çalışan ictimai nəqliyyata sahib yeganə şəhərdir.

Forumda çıxış edən Böyük Britaniyanın "Chapman Taylor" şirkəti İdarə Heyətinin direktoru Marcelina Zielinska Şuşada mədəni irsə əsaslanan şəhərsalma modelinin tətbiq olunduğunu vurğulayıb. O, şəhərdə həyata keçirilən bərpa və planlaşdırma işlərinin mahiyyəti barədə məlumat verərək bildirib ki, Şuşa şəhərinin baş planı "mədəni irsə həssas planlaşdırma" əsaslanır və məqsəd tarixi abidələrin qorunması ilə yeni inkişafın vəhdətini yaratmaqdır.

Xatırladaq ki, bir neçə il əvvəl Azərbaycanın BMT-nin müvafiq ixtisaslaşmış agentliyi – UN-Habitat ilə birgə irəli sürdüyü təşəbbüs əsasında yaradılan bu platforma artıq ənənə halını alıb. Forum hökumət, özəl sektor, qeyri-hökumət təşkilatları, elmi dairələr, memarlar və mütəxəssislərin bir araya gələrək aktual şəhərsalma mövzularını müzakirə etməsi və həll yolları təqdim etməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ənənəvi olaraq forumun ilk iki toplantısı Ağdam və Zəngilanda keçirilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Özbək şirkəti İmişlidə pambıq yetişdirir

## *Əkindən son məhsula kimi bütün işləri onlar həyata keçirəcəklər*

**Özbəkistanın "Tukımachı Sanoat Tekstıl" MMC-nin Azərbaycanda yaradılmış özbək kapitallı şirkəti olan "TST Group" MMC ölkəmizdə pambıqçılığın inkişafına dəyərli töhfəsi ilə iqtisadi əməkdaşlığı genişləndirməyə çalışır. Şirkətin həmtəsisçisi Abduvoris Yuldaşovla görüşərək həmsöhbət olduq.**

***– Necə oldu ki, Azərbaycanda fəaliyyət göstərməyi qərara aldınız?***

– Özbəkistanın dövlət siyasətinə uyğun olaraq Azərbaycanla iqtisadiyyatın ayrı-ayrı sahələrində təcrübə mübadiləsinin durmadan genişləndirilməsi və əməkdaşlıq çərçivəsində biz də iş birliyi yaratmaq qərarına gəldik. Bu məqsədlə ölkənizdə ayrı-ayrı vaxtlarda səfərdə olan nümayəndə heyətimiz bir sıra təkliflər verdi. 2024-cü ilin yanvar-fevral ayında növbəti dəfə Azərbaycanda olduq və real vəziyyətlə yerində tanış olduq. Təklif olunan torpaqların analizindən sonra İmişli rayonunu seçdik. İki ölkə prezidentlərinin Daşkənd şəhərində keçirilən görüşündən sonra bu layihəyə start verildi.

"TST Textile Group" MMC İmişli rayonunda 5 min 826 hektarlıq ərazidə pambıq əkib–becərəcək. Bu layihə ölkənizdə pambıqçılığın inkişafında mühüm rol oynayacaq. 2025-2029-cu illərdə şirkət pambıq emalı, iplik, toxuculuq və tikiş fabriklərinin, eləcə də pambıq yağı zavodunun qurulmasını nəzərdə tutur. Layihə çərçivəsində xammaldan son məhsul istehsalına kimi bütün proseslər həyata keçiriləcək.

Ümumi investisiya həcmi 92,5 milyon manat təşkil edən layihə çərçivəsində yeni iş yerlərinin yaradılması planlaşdırılır. Layihənin həyata keçirilməsinə şəxsi vəsaitlə yanaşı, Azərbaycan – Özbəkistan İnvestisiya Fondu tərəfindən də vəsaitin ayrılması nəzərdə tutulur. Bu, ölkədə pambıqçılıq sahəsində ilk dəfə olaraq Özbəkistan təcrübəsi əsasında klasterləşmənin formalaşmasına gətirib çıxaracaq, regionlarda məşğulluq təmin ediləcək, əlavə dəyər yükü olan iplik, qumaş və tikiş məhsulları ixrac olunacaq.

***– İlkin işlərə nədən başladınız?***

– Bu torpaqlar tarixən otlaq sahələri olduğuna görə əkinəyararlı olması üçün əvvəlcə hazırlıq işləri gördük. 1700 hektara qədər torpaq sahəsi üçün müvaviq işlər görüldü. Onu da qeyd edim ki, bu ərazilərdə, əsasən, Ermənistan tərəfindən işğal edilən Cəbrayıl rayonunun sakinləri məskunlaşmışdı. İndi isə onlar öz torpaqlarına qayıdırlar. Bu səbəbdən də ilkin olaraq 565 hektarda pambıq əkə bildik.

***– Bəs illik məhsuldarlıq necədir?***

– Əkdiyimiz pampıq sahələrində ortalama 45-50 sentner məhsulumuz var. Bu da ümidlərimizi doğruldur. Nəzərdə tutmuşuq ki, 2026-cı ildə bu torpaqların hamısından maksimum səviyyədə istifadə edək və daha çox məhsul toplayaq.

***– Növbəti illərdə inkişaf üçün daha hansı tədbirlər görüləcək?***



– Bizim yaxşı mütəxəssislərimiz var, onlar da bura gələcək və yerli mütəxəssislərlə birlikdə çalışacaqlar. İlkin olaraq minimum 50-55 sentner məhsul toplamağı nəzərdə tuturuq və Özbəkistanda olduğu kimi, gələcəkdə daha da artacaq. Burada pambıqçılığı inkişaf etdirməklə yanaşı, ərazidə yağ zavodunun və tikiş fabrikinin tikilməsi də nəzərdə tutulub. Fabrikin qurulması üçün lazımi avadanlıqlar artıq müəyyənləşib. Hətta elə avadanlıq var ki, onun dünyanın trikotaj sahəsində inkişaf etmiş ölkələrindən alınması nəzərdə tutulub və bununla bağlı danışıqlar aparılıb.

***– Azərbaycanda istehsal edilən avadanlıqları təsərrüfatda istifadə etməyi nəzərdə tutursunuzmu?***

– Bəli, Gəncə Avtomobil Zavodunda işimizə uyğun olan bütün avadanlıqlar var. Bir sözlə, əsasən yerli məhsullardan istifadə etməyi nəzərdə turmuşuq.

***– İşçi qüvvəsinin formalaşması necə olacaq?***

– Bizim layihədə işlər torpaqdan başlanmış son nəticəyə qədər nəzərdə tutulub. İlkin olaraq işçilərin sayı 100-120 nəfər olacaq. Mövsüm dövründə isə 350-yə qədər yüksələcək. Azərbaycan Aqrar Universitentinin rəhbərliyi ilə 2 dəfə görüşmüşük. Gələn il üçün 10 gənc mütəxəssisin işlə təmin ediləcəyini nəzərdə tutmuşuq. Çalışırıq ki, yerli mütəxəssislərin hesabına gənc kadr potensialımızı genişləndirək. Gənclərin biliklə yanaşı, yaşlı nəsildən qarşılıqlı surətdə təcrübə öyrənməyi bizim üçün faydalı olacaq.

İstərdik ki, Özbəkistanda olduğu kimi, burada da yüksək səviyyəli peşəkar mütəxəssislərimiz formalaşsın.

***Söhbəti yazdı:***
***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# 9 ayda 20,7 milyon ton neft

## *Əlavə olaraq, 38,2 milyard kubmetr təbii qaz*

**2025-ci ilin yanvar-sentyabr ayları üzrə operativ məlumatlara əsasən, Azərbaycanda 20,7 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Hasilatın 12 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 2,9 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,4 milyon tonu isə (kondensat) "Abşeron" yataqlarının payına düşüb. Hesabat dövründə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) üzrə neft (kondensatla birlikdə) hasilatı 5,4 milyon tona yaxın təşkil edib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, cari ilin 9 ayında 17,4 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 14,9 milyon tonu konsorsiumların, 2,1 milyon tonu SOCAR-ın, 0,4 milyon tonu isə "Abşeron" yatağının payına düşüb. Bu dövrdə xam neft hasilatı orta hesabla gündəlik 62 min ton (458 min barel), kondensat hasilatı 13,7 min ton (112 min barel) təşkil edib. Ümumilikdə, neft hasilatı orta hesabla gündəlik 75,7 min ton (570 min barel) olub. Hesabat dövründə neftin emalı 4,6 milyon ton təşkil edib.

2025-ci ilin yanvar-sentyabr aylarında ölkədə 38,2 milyard kubmetr təbii qaz hasil edilib. Bunun da 0,2 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 20,9 milyard kubmetri "Şahdəniz"in, 1,2 milyard kubmetri "Abşeron" yatağının, 5,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb.

9 ay ərzində xaricə 18,3 milyard kubmetr "mavi yanacaq" ixrac olunub. Ümumi ixracın 9,4 milyard kubmetri Avropanın, 7,3 milyard kubmetri Türkiyənin (o cümlədən TANAP-la 4,3 milyard kubmetr), 1,6 milyard kubmetrə yaxını isə Gürcüstanın payına düşüb.

Nazirliyin məlumatına əsasən, "Azəri-Çıraq-Günəşli" yatağı istismara veriləndən 2025-ci il oktyabrın 1-dək 613,6 milyon ton neft və 240 milyard kubmetr qaz hasil olunub. "Şahdəniz"dən isə 51,5 milyon tona yaxın kondensat və 257,7 milyard kubmetr qaz hasil edilib. Ötən müddətdə ölkə üzrə 663 milyon ton neft və 185,7 milyard kubmetr qaz ixraca nəql edilib.

***XQ***

# "Ümid"də ümidverici quyu qazılır

## *İlkin mərhələdə yataqdan 12,3 milyard kubmetr qaz və 1,8 milyon ton kondensat hasil edilib*



**"Ümid" yatağının cənub qanadında ilk qiymətləndirmə quyusunun qazılması üçün nəzərdə tutulan "Neptun" özüqalxan qazma qurğusunun modifikasiya işlərinin tamamlanması və qurğunun dənizə yola salınması mərasimi keçirilib.**

Mərasimdə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), "Nobel Upstream", "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycandakı filialının, eləcə də "Caspian Oilfield Services" şirkətinin rəhbərləri və xidmət göstərən digər tərəfdaş şirkətlərin rəsmiləri iştirak ediblər.

Qeyd edək ki, "Neptun" qurğusu vasitəsilə "Ümid" yatağının cənub qanadında sualtı qiymətləndirmə quyusunun qazılmasına bu ay ərzində başlanılması planlaşdırılır. Yeri gəlmişkən, özüqalxan üzən qazma qurğusu ilə sualtı qiymətləndirmə quyusunun qazılması SOCAR-ın tarixində bir ilk olacaq. Eyni zamanda, bu quyu indiyədək "Ümid" yatağında qazılan ən dərin quyu hesab olunur. Quyunun layihə dərinliyi 7 min 67 metr təşkil edir. Qazma işlərinin tamamlanması və lay sınağına təhvil verilməsi müddəti, təxminən, 10 ay nəzərdə tutulub.

Yeri gəlmişkən, 2025-ci il sentyabrın 1-dək "Ümid" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində, ümumilikdə, 12,3 milyard kubmetr qaz və 1,8 milyon ton kondensat hasil edilib.

***XQ***

# İqtisadiyyata investisiya qoyuluşu artıb

## *9 ayda bu məbləğ 13 milyard manatı ötüb*



**2025-ci ilin yanvar-sentyabr aylarında ölkəmizdə əsas kapitala 13 milyard 48,1 milyon manat məbləğində investisiya yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.**

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Bildirilib ki, cari ilin 9 ayında neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 11,5 faiz azalsa da, qeyri neft-qaz sektoruna qoyulmuş investisiyaların həcmində 7 faiz artım qeydə alınıb. İstifadə olunmuş investisiyanın 6 milyard 647,6 milyon manatı və ya 51 faizi məhsul istehsalı sahələrinə, 4 milyard 298,5 milyon manatı (32,9 faizi) xidmət sahələrinə, 2 milyard 102 milyon manatı (16,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş investisiyaların 10 milyard 57,3 milyon manatını və ya 77,1 faizini daxili vəsaitlər təşkil edib. İnvestisiyaların 10 milyard 280,2 milyon manatı və ya 78,8 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Komitənin məlumatına görə, cari ilin 8 ayında xarici maliyyə mənbələrindən əsas kapitala 2 milyard manat həcmində vəsait yönəldilib. Bu isə ümumi investisiyaların 24,8 faizi deməkdir. Hesabat dövründə əsas kapitala yönəldilən xarici vəsaitlərin 97,3 faizi Birləşmiş Krallıq, ABŞ, İsveçrə, Türkiyə, Yaponiya, Rusiya, İran İslam Respublikası, Hindistan, BƏƏ, Macarıstan və Fransa investorlarına məxsus olub.

***XQ***



# Azərbaycan lideri düşmənlərin yalan, böhtan kampaniyasını davamlı susdururdu

*Növbəti açıqlamaları Türkiyənin "A Haber" telekanalı yaymışdı*

**2020-ci ilin payızında Azərbaycanın müasir tarixinin ən həlledici günləri yaşanırdı. Uzun dövr davam edən ədalətsiz status-kvo, işğal və beynəlxalq hüququn pozulması fonunda xalqımız 27 sentyabrdan başlanan Vətən müharibəsi ilə öz suverenliyini bərpa etmək, haqq səsini dünyaya çatdırmaq missiyasını yerinə yetirirdi. Bu mühüm prosesin siyasi, diplomatik və ideoloji cəbhəsində isə Prezident İlham Əliyev öz liderlik məktəbini, milli maraqlara söykənən qətiyyətini və beynəlxalq informasiya mübarizəsində misilsiz bacarığını nümayiş etdirirdi.**

Dövlət başçısının 2020-ci il oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibə də bu informasiya diplomatiyasının parlaq nümunələrindən biri idi. Bu çıxış təkcə döyüş meydanındakı uğurların izahı deyildi, eyni zamanda, siyasi baxımdan Azərbaycanın haqq işinə verilən beynəlxalq qiymətin formalaşmasında həlledici mərhələ idi.

## Haqq mübarizəsinin informasiya təminatı

Prezident İlham Əliyev "A Haber"lə söhbətində bir daha bəyan etdi ki, Azərbaycan Ermənistanla mübarizəsini təkcə ərazi bütövlüyü uğrunda deyil, həm də beynəlxalq hüququn bərpası, ədalətin bərqərar olması üçün aparır. Bu fikrin təsdiqi olaraq dövlət başçısı diqqəti BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, lakin 27 il ərzində icra olunmayan qətnamələrə yönəltdi. Belə bir fakt, əslində, beynəlxalq sistemdəki ikili standartların açıq göstəricisi idi. Dövlət başçısı müsahibədə daha sonra Azərbaycanın bu qətnamələrin yerinə yetirilməsini hər zaman sülh yolu ilə istədiyini bildirdi. Lakin Ermənistanın destruktiv fəaliyyəti, təxribatları və işğal siyasətini möhkəmləndirməsi Vətən müharibəsini labüd etdi. Ölkəmizin belə bir mövqeyi – qəsbkarın işğalı genişləndirməsinə qarşı əks–hücuma başlanılması, əslində, ədalətin, dövlət məsuliyyətinin ifadəsi idi.

Müsahibədə Türkiyə – Azərbaycan münasibətlərindən danışan Prezident İlham Əliyev iki qardaş ölkə arasındakı əlaqələrin yüksək səviyyəli diplomatik münasibətlərdən, eləcə də eyni kökdən, eyni tarixdən, eyni dəyərlərdən qaynaqlandığını vurğuladı: "Türkiyənin siyasi, mənəvi və diplomatik dəstəyi Azərbaycanın haqq mübarizəsinə beynəlxalq miqyasda böyük güc qatdı. Prezident İlham Əliyev xüsusi olaraq qeyd etdi ki, Türkiyənin bu mövqeyi regionda yeni geosiyasi balans yaradıb və heç bir xarici qüvvə artıq bu reallığı dəyişdirə bilməz. Bu, təkcə müharibə günlərinin yox, həm də gələcək onilliklərin əsas istiqamətini müəyyən edən strateji baxış idi".

Qeyd edək ki, 2020-ci ilin payızında baş verən hadisələr təkcə döyüş meydanında deyil, həm də informasiya məkanında cərəyan edirdi. Ermənistan dezinformasiya və manipulyasiya vasitəsilə beynəlxalq rəy formalaşdırmağa, qardaş Türkiyənin bölgədəki sülh yanaşmasına çamur atmağa çalışırdı, Prezident İlham Əliyev isə dünya mediası qarşısında Azərbaycanın haqq səsini qətiyyətlə, arqumentlərlə müdafiə edirdi, Türkiyənin Vətən savaşındakı rolunu isə ölkəmizə ictimai-siyasi dəstək kimi dəyərləndirirdi: "Türkiyə-Azərbaycan birliyi bölgə üçün sabitlik gətirir. Əgər toqquşmaların ilk saatlarında Türkiyədən bu dəqiq mesajlar gəlməsəydi, bəlkə də bu işlərə başqaları qarışa bilərdi. Türkiyənin bu mesajları hər kəsə "dur" dedi. Azərbaycan tək deyil, Türkiyə işin sonuna qədər Azərbaycanın yanındadır. Əlbəttə ki, bu gün Azərbaycan – Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk".

## Vətən savaşının beynəlxalq hüquqi təməli

Azərbaycan Ordusunun şanlı Zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsi təkcə hərbi meydanda deyil, həm də beynəlxalq hüquq müstəvisində ədalət uğrunda aparılan mübarizə idi. Bu mübarizənin əsas istiqamətlərindən biri Ermənistanın müharibə qaydalarını və beynəlxalq humanitar hüququ kobud şəkildə pozması, dinc əhalini və yaşayış məntəqələrini məqsədyönlü şəkildə hədəfə alması faktlarının ifşası idi.

Prezident İlham Əliyev bu məsələni bütün beynəlxalq platformalarda prinsipial və ardıcıl şəkildə gündəmə gətirərək, Ermənistanın törətdiyi cinayətlərin hüquqi-siyasi qiymətini dəqiq ifadə etdi. Azərbaycan lideri müsahibədə bununla bağlı faktlara əsaslanaraq, Ermənistanın Gəncə, Bərdə, Tərtər kimi şəhərlərə raket zərbələri endirməsini, dinc əhalinin hədəfə almasını beynəlxalq hüquq çərçivəsində müharibə cinayəti kimi qiymətləndirdi, bunu erməni faşizminin növbəti təzahürü adlandırdı: "Onlar adətən döyüş meydanında məğlubiyyətə uğrayanda mülki şəxslərə atəş açırlar. Bunu biz Birinci Qarabağ savaşında da gördük. Məhz Xocalı soyqırımını törədənlər bizim həmin mənfur qonşularımızdır. Bu dəfə də görəndə ki, artıq döyüş meydanında Azərbaycan Ordusu qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə qarşı müqavimət göstərə bilmirlər, onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd hücum nəticəsində bizim insanlarımız həlak oldular, həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda".

Azərbaycanın dövlət başçısı dəfələrlə vurğulayıb ki, Gəncə, Bərdə və Tərtər şəhərlərinə atılan raketlər müharibə qanunlarına ziddir, bu hücumlar sırf terror məqsədi daşıyır və beynəlxalq hüquq baxımından açıq-aşkar müharibə cinayətidir. Ermənistan ordusu cəbhə xəttindən uzaqda yerləşən bu şəhərlərdə mülki infrastrukturu – yaşayış binalarını, xəstəxanaları, məktəbləri, ticarət obyektlərini, uşaqları və qadınları məqsədli şəkildə hədəfə almışdı. Bu faktlar Prezident İlham Əliyevin qeyd etdiyi kimi, təkcə Azərbaycanın suverenliyinə qarşı deyil, həm də bütün bəşəri dəyərlərə, humanizm prinsiplərinə qarşı yönəlmişdi.

Xatırladaq ki, Gəncə və Bərdəyə atılan "Skad" və "Smerç" tipli raketlər nəticəsində onlarla dinc sakin həyatını itirdi, yüzlərlə insan yaralandı. Bu hadisələr beynəlxalq ictimaiyyətə təqdim edilən sübutlarla bir daha göstərdi ki, Ermənistan silahlı qüvvələri müharibənin elementar etik qaydalarına belə məhəl qoymur. Prezident İlham Əliyev bu faktları dünya mediası qarşısında konkret sənədlərlə, foto və videomateriallarla ortaya qoyaraq, işğalçının cinayətkar mahiyyətini ifşa etdi və bildirdi ki, bu hücumlar müharibə deyil, terror aktıdır.

Beynəlxalq hüququn əsas prinsiplərinə görə, münaqişə şəraitində mülki əhalinin və onların əmlakının məqsədli şəkildə məhv edilməsi Cenevrə konvensiyalarının kobud pozuntusudur. Azərbaycan Prezidenti məhz bu kontekstdə Ermənistanın hərəkətlərini müharibə cinayəti kimi qiymətləndirərək, beynəlxalq ictimaiyyəti bu cinayətlərin tanınmasına və cəzasızlığın qarşısının alınmasına çağırdı. Bu, təkcə hüquqi deyil, həm də mənəvi məsələ idi. Çünki Vətən müharibəsində Azərbaycan dövləti heç vaxt mülki obyektləri hədəf almadı, əməliyyatları yalnız beynəlxalq humanitar hüquq çərçivəsində apardı.

Prezident İlham Əliyevin bu prinsipial mövqeyi Azərbaycanın haqlı mübarizəsini daha da gücləndirdi. Onun beynəlxalq tribunalara, aparıcı KİV-lərə və siyasi mərkəzlərə ünvanlanan çıxışlarında əsas fikir bundan ibarət idi ki, ədalət yalnız güclü ordunun deyil, həm də güclü hüquqi və mənəvi mövqenin sayəsində təmin olunur. Məhz bu səbəbdən Azərbaycan həm hərbi, həm diplomatik, həm də hüquqi müstəvidə qalib gəldi.

Vətən müharibəsinin ən ağrılı səhifələrindən biri olan Gəncə, Bərdə və Tərtərin bombalanması hadisələri Azərbaycan xalqının yaddaşında dərin iz buraxdı. Lakin həmin faciələr, eyni zamanda, ölkəmizin haqlı mövqeyinin açıq-aydın görünməsinə, beynəlxalq ictimaiyyətin diqqətinin Ermənistanın təcavüzkar siyasətinə yönəlməsinə səbəb oldu. Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycan bu cinayətlərin unudulmaması və gələcəkdə təkrarlanmaması üçün güclü siyasi-hüquqi baza formalaşdırdı.

Bu gün müharibədən beş il ötür, lakin həmin hadisələrə verilən qiymət, Azərbaycan Prezidentinin qəti və ədalətli mövqeyi öz aktuallığını itirmir. Çünki bu mövqe sülhün, ədalətin və beynəlxalq hüququn aliliyinə çağırışdır. Azərbaycan dünyaya göstərdi ki, həm cəbhədə, həm də hüquq meydanında həqiqət gec-tez qalib gəlir.

Dövlətimizin başçısı müsahibə zamanı hərbi əməliyyatların uğurlu gedişatını da şərh edərək bildirdi ki, Azərbaycan ordusu qısa müddətdə bir çox yaşayış məntəqələrini azad edib. Bu, hərbi qələbə olmaqla bərabər, həm də 30 ilə yaxın davam edən milli ədalətsizliyə verilən cavabdır. Ölkə rəhbəri, eyni zamanda, vurğuladı ki, Azərbaycan əsgəri öz torpağında vuruşur, işğalçı isə mənasız şəkildə başqasının ərazisində can verir. Bu məqamda Prezidentin fikirləri milli birliyin, Vətən sevgisinin və xalq-ordu vəhdətinin ifadəsinə çevrildi.

Müsahibənin digər strateji xətti regionda yaranan yeni geosiyasi reallıqlar idi. Prezident İlham Əliyev qeyd etdi ki, bu müharibədən sonra Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təminatçısı Azərbaycan olacaq. Ermənistanın işğal siyasətinin iflasa uğraması, onun havadarlarının proseslərə təsir imkanlarının azalması isə artıq yeni mərhələnin başlanğıcını qoyurdu. Yeri gəlmişkən, Prezident İlham Əliyevin "A Haber"də səsləndirdiyi bu fikirlər sonradan reallığa çevrildi. 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat regionda yeni siyasi xəritə yaratdı. Azərbaycan hərbi, siyasi və diplomatik müstəvidə qalib kimi çıxış etdi.

## Qardaşlığın strateji müttəfiqlik dayağı

Dövlət başçısının müsahibədəki fikirləri təkcə diplomatik deyil, həm də psixoloji və ideoloji liderlik nümunəsi idi. O, həm beynəlxalq auditoriyaya, həm də Azərbaycan xalqına eyni anda müraciət edirdi. Başqa sözlə, bir tərəfdən sülh və beynəlxalq hüquqa sədaqət, digər tərəfdən qətiyyət və milli iradə mesajı verirdi. Bu, liderin xalqla mənəvi bağının, siyasi uzaqgörənliyinin və strateji düşüncəsinin ifadəsi kimi diqqət çəkirdi. İlham Əliyevin hər çıxışı, o cümlədən "A Haber"ə müsahibəsi Vətən müharibəsi dövründə milli həmrəyliyin ideoloji dayağına çevrildi.

Azərbaycan Prezidenti müsahibənin sonunda qeyd etdi ki, Türkiyə ilə Azərbaycan münasibətləri gələcəkdə daha da dərinləşəcək və regionun inkişafı bu birliyə söykənəcək. Sonrakı illərdə Zəngəzur dəhlizi təşəbbüsünün irəli sürülməsi, birgə enerji və nəqliyyat layihələri, eləcə də Qarabağın bərpasında Türkiyə şirkətlərinin iştirakı bu bəyanatların praktiki təsdiqi oldu. Beləliklə, "A Haber" müsahibəsi həm dövrün siyasi manifesti, həm də gələcəyə baxış idi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***

## 16 oktyabr



• Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində rəşadətli Azərbaycan Ordusunun Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndlərini işğaldan azad etməsi ilə bağlı məlumat verib.

• Dövlətimizin başçısı Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verib.

• Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS qurğusu, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 avtomobil texnikası məhv edilib.



Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınıb.

• Baş Prokurorluğun məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 16-sı saat 11:00-dək 47 mülki şəxs həlak olub, 222 nəfər xəsarət alıb, 1669 ev, 84 çoxmənzilli yaşayış binası və 301 mülki obyekt yararsız vəziyyətə düşüb.



Qeyd edək ki, ordumuzun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

• Müdafiə Nazirliyi Xocavənd rayonunun işğaldan azad olunan kəndlərinin və Hadrut qəsəbəsinin videogörüntülərini paylaşıb.

• Düşmənin atdığı raket və mərmilərin mülki obyektlərimizə vurduğu ziyanın aradan qaldırılması üzrə tədbirlərin icrasına başlanıb.

• Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə əhalinin təhlükəsizliyinin təmin olunması və mövcud problemlərin aradan qaldırılması məqsədilə müvafiq komissiya yaradılıb. Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin və aidiyyəti yerli icra hakimiyyəti orqanları nümayəndələrinin iştirakı ilə yerlərdə araşdırma işlərinə başlanıb.

Müharibə vəziyyətində ölkədə infrastruktur və mülki obyektlərin bərpası və tikintisi Azərbaycan Respublikası Prezidentinin nəzarətindədir və dövlətimizin başçısının vətəndaşlara qayğısının əyani təzahürüdür.

***Mustafa KAMAL***
***XQ***

# Möhtəşəm uğur formulu




**Siyasət dağıtmaq yox, qurub-yaratmaqdır. Xalqa elə siyasət lazımdır ki, onun təhlükəsizliyini təmin etsin və normal yaşayış üçün şərait yaratsın.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Hələ 2002-ci il ildə "Lider" televiziyasında İlham Əliyevin millət vəkili kimi fəaliyyətinə həsr olunmuş sənədli filmə ad seçərkən mənim təklifimlə "Ümidlərin gerçəklik məqamı" variantı qəbul edilmişdi. Sonrakı illərdə sübut olundu ki, ümidləri gerçəyə çevirmək dövlət başçımızın əsas həyat və fəaliyyət kredosudur. Ürəyinin hərarəti ilə zülmətləri aydınlatmağı fəaliyyət kredosuna çevirənlər söz və əməl vəhdətinin təsdiq təntənəsini yaşadanlardır.**

Ali Baş Komandan İlham Əliyev İstiqlal yolunda səbir və təmkinlə irəlilədi, gerçək situasiyanı, mövcud imkanları analitik təfəkkür süzgəcindən keçirdi, hazırlıqları mükəmməl səviyyəyə çatdırdı, mənəvi-psixoloji döyüş ruhunu, qalibiyyət təşnəsini yetkin fiziki-texnoloji nəticə ilə birləşdirdi və Zəfər yolunun inşasına başladı. Zəngəzur yolu ilə birləşəcək müqəddəs yola çıxdı. 30 il ərzində dilimizin ümumişlək sözləri sırasına daxil olmuş "qaçqın", "köçkün" ifadələri Qələbə dilinin içində əridi, assimilyasiyaya uğradı. Dünya 21-ci əsrin müharibə taktikasını gördü. İkili standartlar meydanında oynayanlar Azərbaycan həqiqətləri qarşısında susmaq məcburiyyətində qaldılar. Azərbaycan Ordusunun şöhrəti dillərdə dastan oldu. Hər bir azərbaycanlı köksünün altında ürək yerinə Azərbaycan bayrağının çırpıntısını eşitdi.

Müzəffər Ali Baş Komandan, qüdrətli ordu, qalib xalq epitetlərindən fərəhimiz dağa döndü. "Biz Qarabağı cənnətə çevirəcəyik" niyyətli dövlət başçısının göstərişi ilə dərhal quruculuq prosesinə start verildi.





...Yazıçı-publisist, şair Süleyman Hüseynovun dəvəti ilə sentyabrın 25-də mənim də Qarabağa getmək arzum gerçəkləşdi. "Azpress" saytının rəhbəri, tanınmış video-fotomüxbir S.Rasim də bizimlə idi. Qələbədən sonra Ağdama – Qarabağa ilk dəfə yollanan hər bir soydaşımız kimi, mənim də ürəyim həyəcandan çırpınırdı.

## Ağdamın ağ günləri

Ağdamın etimologiyası işıqlı ev deməkdir. İlk ziyarətimiz Ağdam Muğam Mərkəzində gerçəkləşdi. Mərkəz memarlıq üslubu ilə göz oxşayır. Muğam sənətinin inkişafı, böyük tədbirlərin düzənlənməsi, gənc nəslin sənətin sirlərinə dərindən bələd olması üçün burada gərəkən bütün şərait yaradılıb.

1868-70-ci illərdə Kərbəlayı Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gəlmiş, 2 minarəli, 1 günbəzli Ağdam Cümə məscidindən artıq azan səsi eşidilir, burada namaz qılınır, dualar oxunur. Məscidin həyətindəki seyid qəbirlərini də ziyarət etməyi özümüzə borc bildik.

Hər tərəfdən yaşıllıqla əhatə olunmuş İmarət kompleksi Ağdamda ən çox ziyarət olunan məkandır. Xan ailəsinin və yaxınlarının məzar abidələri, iqamətgah ocaqları müasir texnoloji imkan və mütəmadi verilən muğam ifaları ilə maraq doğurur. Dəyərli şair, rus istilası, siyasi çəkişmələr üzündən, Xanlığın mənafeyi naminə şəxsi həyatını ağrı-acı ilə keçirmiş xeyriyyəçi Xurşidbanu Natəvanın ruhu bu gün cənnətə dönən azad Qarabağda dinclik tapıb.

1751-52-ci illərdə hərbi müdafiə məqsədi ilə tikilmiş, Qarabağ xanlığının ikinci paytaxtına çevrilmiş Şahbulaq qalasının ərazisi buz kimi çeşməsi, yaşıllığı, estetik görünüşü ilə dəyərlidir. Bir az aralıda tarix elminin fədakarları – arxeoloqlar çalışırlar.

Ağdam otelində 3-cü mərtəbənin eyvanından günəşin zərrin şəfəqləri ilə salamlaşmaq özgə bir bəxtiyarlıq bəxş edir adama. Səhər yeməyindən sonra terrasa qalxdıq. Yenidən qurulan, tikinti meydançasına çevrilən Ağdam buradan apaydın görünür. Bir tərəfdə erməni xislətinin, vəhşi təfəkkürünün göstəricisi olan dağılmış, yağmalanmış evlər, digər tərəfdə sürətlə tikilən çoxmərtəbəli binalar, sosial obyektlər, texnikanın səs-küyü, Ağdam konfrans zalı, Hilton oteli, yaşayış evləri. Zaman dağıdıcı şüurla qurub-yaratmaq təşnəli zəkanın fərqini aydınladır sanki. Quruçay mədəniyyətinin tərkib hissəsi, Füzulidən 14 km şimal-şərqdə yerləşən, paleolit və mezolit dövrlərini əhatə edən Azıx mağarasında arxeoloqlarımız şövqlə yeni axtarışlar aparırlar.

## Xocavəndin ahənrübası

Şəhidlərimizin anım mərasiminə Xocavənddə qatıldıq. Qarabağ iqtisadi rayonuna daxil olan, böyük əraziyə malik Xocavənd 1992-ci ilin oktyabrında işğala məruz qalmışdı.




İndi rayonun mərkəzində Ali Baş Komandan İlham Əliyevin qaldırdığı müqəddəs Azərbaycan Bayrağı əzəmətlə dalğalanır. Burada da sürətli quruculuq işləri gedir. Bütün xidmət sahələrinin yerli şöbələri fəaliyyət göstərir. Xocavənd gözəl məkandır, adamı ahənrüba kimi çəkir özünə.

Prezident İlham Əliyevin Ağdam–Füzuli–Xocavənd rayonları üzrə nümayəndəsi Emin Hüseynov can yanğısı, sevgi və şövqlə dövlət başçısının tapşırıqlarını yerinə yetirir. Səhərdən axşama qədər rayonlar arasında, tikinti meydançalarında, beynəlxalq tədbirlərdə, problemlərin həllində çalışır.




Xocalı qətliamının acısını hər birimiz yaşamışdıq. Şükürlər olsun bu günə! Xocalının mərkəzində rahatca gəzirik, şəkil çəkdiririk Süleyman Hüseynovla. Bir vaxtlar bu küçələrdən uşaq nalələri göyə bülənd olmuşdu. Bu günsə yolun o üzündən, məktəbin həyətindən topla oynayan yeniyetmələrin "qol" nidaları Xocalı parkına yayılır. Bu xronometraj fərqini nəsib edən Ali Baş Komandana və Ordumuzun əsgərlərinə eşq olsun!

## Zəfərin nur töhfəsi

Bələdçimiz, Xocavənd nümayəndəliyinin məsul əməkdaşı Emin Quliyev yorulmadan, usanmadan, həvəslə bizi gəzdirir, yeniliklər haqqında məlumat verirdi. Ərazini əl içi kimi tanıyır, hər kəsin böyük hörmətini qazanıb. Axşam saat 21-22 radələrində Xocavənddən çıxıb Xankəndi gecələrini seyr etməli və Ağdama, otelə qayıtmalıydıq.

– Sizə elə bir yer göstərəcəyəm ki, könlünüz fərəhlənəcək, - dedi Emin. Və Dağdağan kəndinin üstündə, dikdirdə maşını saxladı. İşıq seli əsl möcüzədir?! Bir vaxtlar nankor separatçılar yuvası olmuş Şuşa və Xankəndidə işıqlar bərq vurur. Yox, bu, sadəcə, Mingəçevir Su Elektrik Stansiyasında fizika elminin düsturu ilə ərsəyə gələn, bütün ölkəyə paylanan elektrik deyil.

Bu, ruhumuzun qələbə sevincindən işıldayan vizual təqdimatdır. Bu işıqlar canını Vətəninin ərazi bütövlüyü uğrunda fəda etmiş Şəhidlərin al-qırmızı qanıdır, səmadan simvol şəhərlərimizin üzərinə düşüb, bərq vurur. Bu işıqlar Ali Baş Komandanın, qalib Sərkərdənin məğrur baxışları, düşmənin canına vicvicə salan nüfuzudur.

## Xankəndi qüruru

Xankəndidə gümrahlıqdır. Yaşayış var artıq. Məşhur brend marketlərinin, restoran və kafelərin şöbələri fəaliyyət göstərir. Hər tərəfdə qızğın tikinti və təmir işləri gedir. Ölkənin hər yerindən ailəvi gələnlər sevinc və coşqu, həvəslə, bəxtiyarlıqla şəkil çəkdirirlər. Taksilər Bərdəyə, Şuşaya, Tərtərə, Ağdama, Füzuliyə müştəri səsləyirlər. Yanımızdan Xankəndi-Bərdə mikroavtobusu keçir. Bir anlıq adama yuxu kimi gəlir. Qaldığımız "Bulud" oteldə, digər kafe və restoranlarda mükəmməl xidmət mədəniyyəti müştəri məmnuniyyətinə rəvac verir. Geniş imkanlara malik Xankəndi stadionu MDB oyunlarını qarşılamaq üçün hazırlanır. Mərkəzi parkda şəhidlər üçün Xatirə kompleksi tamamlanmaq üzrədir. Qarabağ Universitetinin qarşısındakı parkda dərsdən çıxmış tələbələri görürük. Sevincləri ikiqatdır. Tələbə adını qazandıqlarına və Xankəndinin ilk tələbə sakinləri olduqlarına görə. Kim bilir, bəlkə bu tələbələrin içində gələcəyin "Nobel"çiləri, "Oskar" mükafatçıları, dünyaşöhrətli alimləri, həkimləri var?!

Xankəndidə ruhu dincəldən, yorğunluğu unutduran qəribə bir aura, gözoxşayan görüntü, könülaçan sakitlik var.

...2021-ci ildə qələmə aldığım, Xalq artisti Firudin Məhərrəmovun Sumqayıt Dövlət Dram Teatrında quruluş verdiyi, Birinci Qarabağ savaşını və 44 günlük Vətən müharibəsini özündə ehtiva edən "Missiya" mistik dramı ilə Laçına qastrol səfərinə çıxmalıydıq. Əsərin əsas obrazlarından biri – gerçək Milli Qəhrəman Qorxmaz Eyvazovun doğulduğu Güləbird kəndində şəhidin xatirəsini anıb, Laçın şəhərində tamaşanı göstərməliydik.

Sentyabrın 18-də, gecə Sumqayıtdan çıxdıq. Təşkilatçılardan Şuşa yolu getməyimizi istəmişdik. Beləliklə, sentyabrın 19-da səhər-səhər Şuşaya çatdıq. Yenicə çay süfrəsinə oturmuşduq ki, geri qayıtmaq barədə komanda gəldi. Sonradan bildik ki, həmin gün antiterror əməliyyatına başlanması barədə Ali Baş Komandan İlham Əliyev əmr verib.

## Bu da Şuşa!

Bu da qürur yerimiz, yaddaş saxlancımız, mədəniyyət beşiyimiz Şuşa! 2021-ci ilin sentyabrında əyləşdiyimiz yeri axtardım, tapa bilmədim. Əsla bu, mənim yaddaşımın zəifliyi ucbatından deyil, şəhərin sürətli inkişaf prosesinə görədir. Üç dəfə - 1905, 1920, 1992-ci illərdə yandırılmış, 8 mayda bağrının başı qarsımış Şuşa, nəhayət, 8 noyabrda qəm köynəyindən sıyrılıb çıxdı. Şuşanın qurucusu Pənahəli xanın ruhu toxtadı.

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin vəsiyyəti yerinə yetirildi. Ulu öndərin "Əsrin müqaviləsi" ilə strateji konsepsiyasının təməlini qoyduğu beynəlxalq münasibətlərin tənzimlənməsi ideyası, yeni dünya nizamında, Prezident İlham Əliyevin diplomatik konseptində ali səviyyəyə çatdı.

Xan qızı Natəvanın imarəti qarşısında dayandıq. Xeyriyyəçi şairin 1871-ci ildə Ağdamdan çəkdirdiyi bulağın suyundan içdik. Şuşanın 17 məhəlləsindən biri – Çöl Qala məhəlləsi, 17 bulaqdan biridir bura. Güllələnmiş heykəllər, erməni düşüncəsinin, hikkənin və vəhşiliyin sindromu. Şərhə ehtiyacı olmayan tarixi videosüjet.

Şuşanın mərkəzi meydanı adamdan iki göz istəyir ki, saatlarla tamaşa etsin bu gözəlliyə. Klassika ilə modernizmin vəhdət məqamında bərpaolunan meydanın estetik həzzi təkcə gözləri doyurmur, həm də zehniyyətə, ürəyə yağla bal kimi yaxılır. Meydanda tikilmiş Yuxarı Gövhər Ağa məscidi ən qədim dini ocaqlardan sayılır.

Layihə müəllifi Mir Möhsün Nəvvab, memarı Kərbalayı Səfixan Qarabaği olub. 2023-cü ildə restavrasiya edilib. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin də məqbərəsini ziyarət etdik.

...1967-ci ildə Şuşa şəhərində Heydər Əliyev Vaqifin məzarına baş çəkmək istədiyini bildirir. Çox çətinliklə tapılan və bərbad gündə olan məzarı Ulu öndərə göstərirlər. İki il sonra Azərbaycana rəhbərlik edən Heydər Əliyevin göstərişi ilə Vaqifin məqbərəsi tikilir. 1982-ci il, qarlı yanvar ayında respublikanın görkəmli şair və yazıçılarının iştirakı ilə Heydər Əliyev abidənin açılışını gerçəkləşdirir.

Cıdır düzünə çıxmağı çox arzulayırdım. Prodüserlər Rasim Həsənov və Fikrin Bektaşi ilə birgə işlədiyimiz layihədə Cıdır düzü məkan olaraq keçirdi. Ssenari yazılarkən yer haqqında dolğun təsəvvürün olması çox vacibdir. Şükürlər olsun Allaha, bu arzuma çatmağı nəsib etdi mənə. Qarabağ xanlığı dövründən fəaliyyət göstərən Cıdır düzündə çövkən oyunları, Novruz şənlikləri, pəhləvan yarışları, qoç və dəvə döyüşləri keçirilib. Fikir adamı, böyük alim, musiqişünas Mir Möhsün Nəvvab da tez-tez burada "Məclisi – Fəramuşan" cəmiyyətinin məclislərini təşkil edərmiş. Elə məzarı da Cıdır düzünün yanındadır. Bəlkə də ruhu tarixi məkandan pasiban olmaq üçün burada dəfn edilməsini arzulayıb?!

Cıdır düzünün digər istiqamətinə, sərt qayalara, əlçatmaz uçurumlara baxıram və qeyri-mümkünü mümkünə çevirən, cəsarətin və igidliyin heyrət məqamını yaşadan xüsusi təyinatlılarımızı xatırlayıram. İstiqlal təşnəli, yurd sevdalı, şir ürəkli ərənlərə "əhsən" söyləyirəm. Şəhid olanların ruhuna Fatihə göndərirəm, qazilərə şəfa diləyirəm və düşünürəm ki, bu qəhrəmanlıq haqqında məlumatı olan heç bir düşmən bizə qarşı savaşı ağlına belə, gətirməz. Artıq ümidlər gerçəklik məqamına yetişib.

Hava axşama doğru dəyişir. Deyirlər, bu aylarda buralarda peydərpey yağış yağır. Qoy, yağsın, bərəkətdir. Amma hələ ki, yağış yoxdur. Şuşanın dağlarının üstündə ağ pəmbə buludlar görünür.

***Hafiz ATAXANLI,***
***yazıçı-publisist,***
***fotolar S.Rasimindir***

# "Yaşıl gələcəy"in sağlam həyat çağırışları



**Dünən Bakıda Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu ilə birgə təşkil etdiyi "Enerji, qida, ətraf mühit və iqlim təhlükəsizliyi sahəsində çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Açılış mərasimində AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli 14 ölkədən 140-dan çox alimin iştirak etdiyi beynəlxalq konfransın işinə uğur arzulayaraq, müzakirə mövzusunun ötən il Azərbaycanın yüksək səviyyədə ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) proqramının əsas müddəaları ilə səsləşdiyini qeyd edib. O, beynəlxalq elmi məclisin COP29-un ideya və məqsədlərinin elmi müstəvidə davam etdirilməsinə xidmət etdiyini vurğulayıb.

Akademik Prezident İlham Əliyevin iradəsi, himayəsi və iştirakı ilə COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsinin dövlətimizin "yaşıl iqtisadiyyat"a keçid strategiyasına, milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin qarşısının alınması işinə verdiyi töhfənin məntiqi nəticəsi olduğunu bildirib. AMEA rəhbəri Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur bölgələrində dövlətimizin başçısı tərəfindən elan edilmiş "yaşıl enerji" zonalarının öz fəaliyyətini uğurla davam etdirdiyini söyləyib.

Konfransda bildirilib ki, Azərbaycanda "yaşıl energetika"nın inkişaf etdirilməsi üçün mühüm Dövlət proqramları həyata keçirilir. Alternativ enerji mənbələrindən istifadə üzrə Azərbaycan təkcə Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrində deyil, dünyada qabaqcıl yerlərdən birini tutur.

Ölkəmizdə ən müxtəlif çeşidli enerji mənbələrinin istismarı, istehsalı, ixracı ilə yanaşı, bu sahələrin öyrənilməsi, tədqiqi və elmi cəhətdən əsaslandırılması da yüksək səviyyədədir.

Qeyd edilib ki, Azərbaycanda ötən illərdə alternativ enerji mənbələrini, ekoloji problemləri, qida, ətraf mühit və iqlim təhlükəsizliyini öyrənən böyük elmi məktəblər formalaşıb, bu istiqamətdə tədqiqatlar davam etdirilir. Elm və Təhsil Nazirliyinin bir sıra elmi-tədqiqat müəssisələrində yarım əsrdən çoxdur ki, bu problemlər öyrənilir, inkişaf etdirilir və Azərbaycan reallıqlarının elmi cəhətdən əsaslandırılması şəklində ictimaiyyətə təqdim olunur.

*Q.YUSİFOĞLU*
*XQ*



# Teatr xadimimiz "Çingiz Aytmatov" medalı ilə təltif edilib

**Azərbaycanın teatr xadimi, aktyor, rejissor İftixar Piriyev nüfuzlu beynəlxalq mükafata – "Çingiz Aytmatov" medalına layiq görülüb.**

Mükafat soydaşımıza "Çingiz Aytmatov Beynəlxalq İssık-Kul Forumu" Rəyasət Heyətinin qərarı ilə incəsənət vasitəsilə xalqlar arasında sülhün və dostluğun möhkəmləndirilməsində müstəsna xidmətlərinə, türkdilli xalqların ortaq mədəni irsinin təbliğinə, xüsusilə Azərbaycan–Qırğızıstan ədəbi və teatr əlaqələrinin inkişafına verdiyi töhfəyə görə verilib.

*XQ*

*Dünyadan gələn sorağımız*

# Estoniyada Azərbaycanın xalça dünyası

## *"Buta" Mədəniyyət Mərkəzi milli irsimizi dost xalqa tanıdır*

**Milli-mədəni dəyərlər hər bir xalqın tarixinin ən vacib göstəricisi və mənəvi sərvətidir. Bu irsi dünyanın müxtəlif yerlərində qürurla təmsil edən insanlar isə mədəniyyət səfirlərinə çevrilirlər. Onlardan biri də Estoniyada yaşayıb-yaradan mahir xalçaçı-rəssam, ustad sənətkar Rövşən Nurdur.**



1978-ci ildə Mingəçevirdə anadan olmuş Rövşən Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirmiş, sonra isə Tallin İncəsənət Akademiyasında magistr təhsili almışdır. Soydaşımız 2004-cü ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Azərbaycanı beynəlxalq sənət arenasında yüksək səviyyədə təmsil edən xalçaçı-rəssamın əsərləri ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Lüksemburq, Fransa, Monako, İsveç, Litva, İtaliya və İspaniyada sənət sərgilərində nümayiş etdirilmiş və şəxsi kolleksiyalarda yer almışdır. Azərbaycan mədəniyyətinin dünya miqyasında tanınmasında mühüm rol oynayan sənətkar beynəlxalq mükafatlara və bir sıra fəxri təltiflərə layiq görülmüşdür.




Həmyerlimizin xalça və rəsm əsərləri süjeti, estetik yanaşma və fərdi düşüncə tərzi ilə diqqəti cəlb edir. Əsərlərində isə doğma Bakı, respublikamızın bölgələri, milli atributları geniş və dolğun əks olunur. Eskizdən son ilməyə qədər bütün prosesi özü icra edən mahir toxucu Şərq fəlsəfəsini Qərb akademik dəqiqliyi ilə uğurla birləşdirir. Toxuduğu xalçalar, sadəcə, dekorativ sənət nümunəsi deyil, xalqımızın tarixini və milli kimliyini vizual yaddaşa çevirən məfkurəvi silsilədir.

**Rövşən Nurla onlayn söhbət zamanı bu sənətin fəlsəfi dərinliyini, xalça toxumağın sirlərini və rəssamın milli mədəniyyətimizə sonsuz sevgisini öyrəndik.**

**– Sizin üçün xalçaçılıq nə deməkdir? Siz xalçanı həm dizayn edir, həm də toxuyursunuz. Bu iki prosesi necə uzlaşdırırsınız?**

– Xalçaçılıq mənim üçün yalnız sənət deyil, mədəniyyətimizin, tariximizin və ruhumuzun daşıyıcısıdır. Rəssam ideya verir, sənətin vizyonunu yaradır, toxucu isə o vizyonu ilmə-ilmə gerçəkləşdirərək ona ruh və həyat bəxş edir. Buna görə də mən bu iki mərhələni bir-birindən ayırmıram. Hər bir rəngin, hər bir ornamentin toxunma prosesini özüm hiss etmək istəyirəm. Xalça toxumaq mənim üçün bir növ ritualdır.

**– Xalçalarınızda nar, çay dəstgahı kimi motivlər nəyi ifadə edir?**

– Nar həyatın bolluğunu, çay dəstgahı isə mədəniyyətimizin incə ruhunu, xalqımızın səmimiyyətini və qonaqpərvərliyini göstərir. Mənim hədəfim, Azərbaycan mədəniyyətini təkcə naxışlarla deyil, hər kəsin anlaya biləcəyi bir hekayə kimi təqdim etməkdir. Bu, həm sənətimizin, həm də ölkəmizin təbliği üçün çox vacibdir.

**– Xocalı, Qanlı Yanvar kimi milli faciələri və 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyimiz Zəfəri vizual yaddaşa köçürmüsünüz. Sizin üçün ağrı və qürurun kətan və xalçada təsviri nə deməkdir?**

– Bu sənətkarın tarixi missiyası, milli yaddaşın qorunmasıdır. Mən kətan üzərindəki hər fırça izində, xalçadakı hər ilmədə xalqımın ağrısını və gücünü nəsillərə çatdırmaq, bu hadisələri unutdurmamağa çalışıram. Bu, mənim Vətən qarşısındakı mənəvi borcumdur. Zəfərə həsr etdiyim xalçada isə hər ilmə qəhrəmanlıq, birlik və qayıdışa olan sarsılmaz inamı ehtiva edir. Bu, ağrıdan qürura doğru gedən tarixi bir yoldur. Xarici tamaşaçılar bu mövzularda Azərbaycanın haqq səsini və mübarizəsini daha aydın görürlər.

**– Estoniya Respublikasının 100 illiyi şərəfinə "Mənim yolum" sərgisinin təşkil olunması sizin yaradıcılığınızda xüsusi yer tutur. Həmin sərgidə Azərbaycan motivləri ilə yanaşı, Tallinə həsr etdiyiniz əsərlərin də nümayiş olunması sizi iki ölkənin sənətçisi kimi təqdim edib.**



– Estoniyanın 100 illiyi münasibətilə keçirilən sərgidə həm doğma Azərbaycanımın zəngin mədəniyyətini, həm də mənə ev sahibliyi edən Tallinin xoş ab-havasını bir araya gətirmişdim. Bu sərgi həm də iki ölkə arasında səmimi dostluq körpüsü olmuşdur. Bu, həm də mənim hər iki xalqa mənəvi borcumu ifadə edib.

**– Siz minlərlə kilometr uzaqda milli sənətimizi həm öyrədir, həm də təbliğ edirsiniz. Yaşadığınız şəhərdə xalçalarımıza olan maraq nədən qaynaqlanır?**

– Bu, mənim üçün çox qürurverici və ruhlandırıcı bir hissdir. Tallindəki xalça məktəbimiz milli sənətimizi yaşadır. Burada təkcə gənc tələbələr deyil, müxtəlif peşə sahibləri və yaş qruplarından olan insanlar xalça sənətini böyük həvəslə öyrənirlər. Marağın qaynağı isə təkcə toxuma texnikası deyil. Estoniyalılar bizim xalçaların tarixi yaddaşını, rənglərin mənasını və ən əsası, hər naxışdakı mənəvi kodu öyrənmək istəyirlər. Mən onlara hər bir rəngin, hər bir simvolun Azərbaycan fəlsəfəsindəki dərin mənasını izah edirəm.

Şagirdlər öz əlləri ilə Azərbaycan naxışlarını toxuyanda, bizim mədəniyyətimizin dərinliyinə enmiş olurlar. Bu, Estoniya cəmiyyətində Azərbaycan sənətinə və qonaqpərvərliyinə səmimi bir heyranlıq yaradır.

Onu da qeyd edək ki, rəssam Rövşən Nurun fəaliyyəti təkcə fırça və ilmə ilə məhdudlaşmır. Onun milli mədəniyyətimizin təbliği missiyası Estoniyanın paytaxtında rəhbərlik etdiyi mərkəz vasitəsilə daha geniş əhatə tapır. Bu yaxınlarda onun rəhbərlik etdiyi "Buta" Azərbaycan Mədəniyyət Mərkəzində – "Azərbaycan çayı: adət-ənənələr və müasirlik" adlı tədbir keçirildi. Təşəbbüs yerli estoniyalı gənclər də daxil olmaqla, çoxsaylı qonağın böyük marağına səbəb oldu. Əsas məqsəd Azərbaycanın qonaqpərvərlik rəmzi olan çay mədəniyyətini Avropa auditoriyasına təqdim etmək idi.

Qonaqlara Lənkəran, Astara, Zaqatala bölgələrindən gətirilən müxtəlif çay növləri, onların dəmlənmə üsulları nümayiş etdirildi. Belə tədbirlər sənətlə yanaşı, mədəniyyətin incəliklərini gənclər arasında təbliğ edən və Azərbaycanı tanıdan ən uğurlu vasitədir.

Sənətkarlar Azərbaycan mədəniyyətinin canlı körpüsüdür. Onlar yalnız gözəllik yaratmır, həm də milli kimliyimizi və mədəni sərvətimizi dünyaya tanıdırlar.

*Arzu ƏLİYEVA*
*XQ*

*Firuzə Məmmədli – 85*

# Məhsəti, Natəvan şeiriyyətinin çağdaş davamçısı



**Azərbaycanın ədəbi-mədəni ictimaiyyəti tanınmış şair, dilçi alim və pedaqoq Firuzə Məmmədlinin anadan olmasının 85 illiyini qədirbilənliklə qeyd edir. Azərbaycan Yazıçılar Birliyində və Xaçmaz rayonunda keçirilən yubiley mərasimlərində qocaman söz ustasının mənalı ömür yoluna sevgi-sayğı ilə nəzər salınıb, milli idealları əks etdirən yaradıcılığına yüksək dəyər verilib.**

Sevimli Firuzə xanımla gec tanış olsam da, mənəvi zənginliyindən çox pay götürmüşəm. Həmyerli olmağımızdan ikiqat artıq sevinc və qürur duymuşam. Yazıçılar Birliyində düzənlənmiş yubiley məclisində iş yoldaşlarının, tələbələrinin, dostlarının, tanışlarının, ədəbiyyatçıların, elm adamlarının onun haqqında söylədiklərindən, ona verdikləri dəyərdən nə qədər fərəhləndiyimi sözlə ifadə etməyə çətinlik çəkirəm. Firuzə xanımın boya-başa çatdığı Xaçmaz rayonunda keçirilmiş təntənəli yubiley mərasimində söylənənləri, eşitdiklərimi və duyub-düşündüklərimi isə qələmə alsam, bir kitab alınar.

Firuzə xanım yaradıcılığa 1963-cü ildə Xaçmaz rayonunda çıxan "Dostluq" qəzetində çap olunmuş "Ay həkim" şeiri ilə başlayıb, bu günədək qələmi əlindən yerə qoymayıb. 1973-cü ildə ilk şeirlər kitabı – "Gümüşü damla" çapdan çıxıb. Sonra ilaşırı yeni şeir kitabları ilə oxucuların görüşünə gəlib. 1992-ci ildə Türkiyənin Bursa şəhərində keçirilən türkdilli xalqların şeir müsabiqəsində birincilik qazanaraq "Əlişir Nəvai" mükafatına layiq görülüb. Ardınca ölkəmizdə nüfuzlu "Rəsul Rza", "Nəsimi", "Qızıl kəlmə" mükafatlarını qazanıb.



Bircə onu söyləyim ki, Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın Firuzə Məmmədlinin istedadlı şair, məhsuldar yazıçı, fədakar alim, görkəmli elm fədaisi olması ilə yanaşı, həm də rəhbərlik etdiyi qurumun intizamlı işçisi, nüfuzlu əməkdaşı, yorulmaz ədəbiyyat adamı, həmkarlarının sevimli ağbirçəyi olması barədə şairin həmyerliləri qarşısında söylədiyi səmimi fikirlər hamını duyğulandırdı və xaçmazlıları isə həm də qürurlandırdı.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayevin və digər natiqlərin bu zərif vücudlu, incə ruhlu, yazıb-yaratmaq həvəsli xanım-xatın ziyalının həyat və yaradıcılığı haqqında dərin ehtiramla, sevə-sevə danışmaları xəyalımda onun Məhsəti Gəncəvi, Xan qızı Natəvan şeiriyyətinin istedadlı və cəfakeş davamçısı obrazını yaratdı.

Beləliklə, həmin obrazda canlanan fədakar xanımın dupduru gözləri, dərin müşahidəli baxışları, daxili zənginliyini əks etdirən üz ifadəsi, sakit duruşunun arxasındakı qaynarlıq barədə söz açmaq istəyirəm. İnternetə, Viki mənbəyə üz tutdum... Firuzə xanım nə qədər zəngin bir həyat, məhsuldar yaradıcılıq yolu keçib, nə qədər filoloq yetişdirib. Oncildlik "Seçilmiş əsərləri"ndə toplanmış müxtəlif janrlı əsərlər – şeir, hekayə, məqalə, monoqrafik tədqiqat, tərcümə, publisistik yazılar... şair, alim, pedaqoq Firuzə Məmmədlinin ədəbiyyatımız, filologiya elmimiz, ali təhsilimiz üçün göstərdiyi xidmətlərin çevrəsini və çəkisini nişan verir.

Firuzə xanımın tərcümeyi-halını, keçdiyi həyat yolunu, aldığı təltifləri, elmə verdiyi töhfələri öyrəndikcə, həm heyran qalırsan, həm də bunları necə etdiyinə təəccüblənirsən. 15 yaşında ikən əla oxuduğuna və məktəbyanı sahədə yetişdirdiyi yeni alma növünə görə Ümumittifaq Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalına layiq görülüb. 4 il sonra isə orta məktəbi gümüş medalla bitirib. 1964-1968-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin dil-ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə başa vurub.

Yubilyar xanım tələbəsi olduğu Azərbaycan Dövlət Pedaqoji Universitetində 50 il müəllim işləyib. 1990-cı ildə "Yusif Vəzir Çəmənzəminlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. Dilçilik kafedrasının dosenti olub.

Bu nailiyyətləri ömrünün illərinə, aylarına, günlərinə, bəlkə, dəqiqələrinə bölsək, yüksüz, çəkisiz saat, gün tapmaq olmaz. Firuzə Məmmədli 2012-ci ildə ölkəmizdə elm və təhsilin inkişafında göstərdiyi xidmətlərə görə ilə "Tərəqqi" medalı, 2021-ci ildə III dərəcəli "Əmək" ordeni ilə təltif olunub. O, yaradıcılıq sahəsində Prezident təqaüdçüsü olub.

Firuzə xanımın şair kimi müşahidə qabiliyyəti, alim kimi zəkası güclüdür. İnsan kimi səbirlidir, inadkardır, fəaliyyəti məqsədyönlüdür. 78 il bundan öncə 1-ci sinfə gedərkən əlinə qələm alıb hərfləri yazmağı, tanımağı öyrənməyə başladığı gündən oxuyur, öyrənir, bildiklərini tətbiq edir. Türk, rus, özbək, tacik, fars dillərindən tərcümə etdiyi şeir nümunələri oxucular tərəfindən maraqla qarşılanır. Müxtəlif janrlarda yazdığı əsərləri, ən çox da şeirləri ingilis, rus, özbək, türkmən, gürcü, Ukrayna, polyak, fransız, türk, fars dillərinə tərcümə olunub, Türkiyədə və İranda kitabları çap olunub, şeirinə mahnı yazılıb.

Firuzə xanım vətənpərvər, qəlbi vətən sevdasıyla dolu bir ziyalımızdır. Hələ 1965-ci ildə o, tələbə ikən Bütöv Azərbaycan uğrunda tələbə hərəkatına qoşulub və bu yolda dönməzliyini, iradə və əzmini, mübarizliyini odlu-alovlu çıxışlarında sərgiləyib. Azərbaycanı bütöv görmək, o taylı-bu taylı soydaşlarımızla yenidən eyni bayraq altında birləşib xoşbəxt yaşamaq onu bir ziyalı kimi həmişə düşündürüb və bu arzusuna qovuşmaq üçün həmişə bir əsgər kimi hazır olub.

Bütün bu dediklərim onun bioqrafik səpkili "Nə yaxşı" şeirində bədii-estetik əksini tapıb:

**Yaddaşımda nə ki vardı, cəm etdim,**
**Gündüzləri gecələrə şam etdim.**
**Vərəqləri qələmimlə şum etdim,**
**Sözüm bitib-tükənmədi, nə yaxşı!**

**Çətinliyi dağdan aşan günlərin,**
**Ümidləri aşıb-daşan günlərin,**
**Duyğulara süfrə açan günlərin**
**Varağını bükəmmədim, nə yaxşı!**

Qocaman söz ustadımızı, Azərbaycan qadınlığını şərəfləndirmiş şair, alim, pedaqoq Firuzə Məmmədlini bir daha təbrik edir, ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

*Əntiqə QONAQ,*
*Əməkdar jurnalist*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 222 (30916) 16 oktyabr 2025-ci il, cümə axşamı

İDMAN

## Eltac Səfərli Avropa birincisi oldu



**Gürcüstanın Batumi şəhərində şahmat üzrə komandalar arasında Avropa çempionatının bağlanış mərasimi keçirilib.**

Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, toplantıda komandalarla yanaşı, lövhələr üzrə fərqlənən şahmatçılar da təltif olunub. Azərbaycan təmsilçilərindən Eltac Səfərli 3-cü lövhədə 1-ci yeri tutmaqla qızıl medala layiq görülüb. Şahmatçı 3 qələbə və 4 heç-heçə sayəsində bütün həmkarlarını qabaqlayıb.

Qadın şahmatçılardan isə Gülnar Məmmədova 4-cü lövhədə 3-cü yeri tutub. 8 turda 6 qələbə qazanan G.Məmmədovaya bağlanış mərasimində bürünc medal təqdim olunub.

Mərasimdə Avropa çempionatında 2-ci yeri tutan kişi şahmatçılardan ibarət Azərbaycan komandasının üzvlərinə gümüş medal, diplom və kubok verilib.

## "Sabah"ın növbəti məğlubiyyəti



**Azərbaycanın "Sabah" basketbol klubu FIBA Çempionlar Liqasının əsas mərhələsində dünən növbəti matçını keçirib. B qrupunda yer alan komanda Bakıda Almaniya təmsilçisi "Alba" ilə qarşılaşıb. Milli Gimnastika Arenasında təşkil olunan görüş 76:85 hesabı ilə başa çatıb.**

Xatırladaq ki, Rimas Kurtinaytisin baş məşqçisi olduğu kollektiv keçirdiyi ilk matçda Çexiyanın "Nimburk" klubuna 65:93 hesabı ilə uduzub.

## Yeni rekord – 50 oyunda 41 qol



**Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldu tarixi rekorda imza atıb.**

40 yaşlı forvard Macarıstan yığması ilə oktyabrın 14-də keçirilmiş oyunda (2:2) dubl edərək dünya çempionatının seçmə mərhələlərində ən çox qol vuran futbolçu adına sahib çıxıb.

Ronaldu 50 oyunda 41 dəfə fərqlənməklə, Qvatemala millisinin hücumçusu Karlos Ruisin (39 qol) rekordunu yeniləyib.

## "Messi kuboku" təsis edilib



**"İnter Mayami"nin argentinalı kapitanı Lionel Messi yeniyetmələr arasında futbol turniri təsis edib. 38 yaşlı hücumçu bu barədə sosial şəbəkə hesabında məlumat verib.**

Ulduz futbolçunun adını daşıyan "Messi kuboku" dekabrın 9-dan 14-dək Mayamidə keçiriləcək. Argentinanın "River Pleyt" və "Nyuells Old Boyz", "İnter Mayami", İspaniyanın "Barselona" və "Atletiko", İngiltərənin "Çelsi" və "Mançester Siti", eləcə də İtaliyanın "İnter" klublarının U-16 komandaları artıq turnirdə öz iştiraklarını təsdiqləyib.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Futbol tariximizdən*

# Bürünc medallı yarımmüdafiəçi

## *59 il əvvəlin unudulmaz payızı*



**Stajlı azarkeşlər bilirlər, "Neftçi"nin SSRİ çempionatlarında ən böyük uğurundan artıq 59 il ötür. Gələn il noyabrın 30-da çoxminli idman ictimaiyyətimiz Azərbaycan futbolunun ovaxtkı flaqmanının 1966-cı ildə qazandığı bürünc medalların 60 illiyini həmin komandaya böyük məhəbbətlə xatırlayacaq.**

"Xalq qəzeti" ölkə çempionatlarında çıxışlarının bütün tarixi ərzində kəskin rəqabətdə 1966-cı ildəki nailiyyəti ilə futbolumuzun tarixinə unudulmaz səhifə yazmış bürünc komandanın baş məşqçisi Əhməd Ələsgərov, əfsanəvi Anatoli Banişevski, Kazbek Tuayev, Yaşar Babayev, Mübariz Zeynalov, Valeri Hacıyev, Sergey Kramarenko və başqaları haqqında ayrı-ayrı yazılarla artıq çıxış edib. Bu gün isə bürünc medallı daha bir futbolçumuzdan söhbət açacağıq.

Diqqətinizə çatdırdığımız foto 1967-ci ildə keçirilmiş 29-cu SSRİ çempionatında lentə alınıb. Onda da indiki kimi, payız idi. Bundan bir il əvvəl bürünc medal sevinci yaşamış "Neftçi" futbolçuları indi doğma azarkeşlər qarşısında mövsümün son oyunlarından birində Leninqradın (hazırda Sankt-Peterburq) "Zenit" kollektivini qəbul edirdilər.

Noyabrın 8-də çəkilmiş fotoda bakılıların yarımmüdafiəçisi Aleksandr Trofimovun qonaqların qapıçısı ilə təkbətək çıxdığı an əks olunub. Həmin epizodda qapıçı cəsarətli oyunu ilə təhlükəni sovuşdurmağı bacarıb. Aleksandr isə təbii ki, məyus olub.

Hadisələrin gedişinin göstərdiyi kimi, bu ötəri məyusluq idi. Tamaşaçıların maraqla izlədiyi oyunda Trofimov, Banişevski, Tuayev, Hacıyev, Zeynalov, Kramarenko, Boqdanov və onların oyundaşları Respublika stadionunun tribunalarına toplaşan 25 min azarkeşi inamlı qələbə ilə sevindirdilər. Mübarizin iki dəqiq zərbəsi və Hacıyevin penalti ilə vurduğu qol "Zenit"i ağır məğlubiyyətlə barışmağa məcbur etdi. Sevimli komandalarının qələbəsini ürəkdən alqışlayan azarkeşlər xoşbəxt idilər. Onlar rəqib qapısında 3 cavabsız qol görmüşdülər.

Statistikaya görə, SSRİ idman ustası Aleksandr Trofimov (2002-ci ildə 65 yaşında vəfat edib–O.B.) 1961–1969-cu illərdə SSRİ çempionatlarının güclülər dəstəsində "Neftçi"nin heyətində 257 oyunda meydana çıxıb və 9 qolun müəllifi olub. Futbol ictimaiyyətimizin yaşlı nümayəndələri təsdiqləyə bilərlər ki, Trofimov orta xətdə Hacıyev, Anatoli Qryazev və digər oyundaşları kimi məşqçilərin etimadını doğruldub. O, həmişə komandanın hücumlarının təşkilində mühüm rol oynayıb, arxa xətt oyunçularına da yaxından kömək göstərib.

Artıq qeyd etdiyimiz kimi, A.Trofimovun futbol həyatında ən böyük nailiyyət komandanın tarixində Sovet İttifaqı çempionatlarında qazanılmış ilk və yeganə mükafat–bürünc medal olub. 59 il əvvəl soyuq payız axşamında, noyabrın sonuncu günü "Neftçi"nin uğuru onun pərəstişkarlarının həmişə həsrətlə gözlədiyi tarixi hadisə idi. Həmin gün Moskvanın "Spartak" komandası üzərində parlaq qələbədən (3:0) və bürünc medalların taleyi bizim xeyrimizə həll olunduqdan dərhal sonra "Azərbaycan bədən tərbiyəçisi" qəzetinin əməkdaşları elə yaşıl meydançanın kənarında futbolçularımızın hamısına eyni bir sualla müraciət etmişdilər: "İndi özünüzü necə hiss edirsiniz?".

Onda A.Trofimovun cavabı belə olmuşdu: "Mən həm ailə haqqında, həm matç haqqında, bir qədər də medal haqqında düşünürdüm. Qəribə işdir, meydançada yorğunluq məni əldən salmışdı. İndi isə özümü çox yüngül hiss edirəm. Və evə tələsirəm".

Azərbaycan futbolunun yetirməsi, SSRİ çempionatları görüşlərində inamlı oyunu ilə həmişə diqqət mərkəzində olmuş Aleksandr Trofimov komandası və ictimaiyyət arasında yüksək nüfuz sahibi idi. Onun hər oyunda qüvvəsini əsirgəmədən, can-başla mübarizə apardığını hamımız dəfələrlə görmüş və yorulmadan alqışlamışdıq...

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## İranla sərhəddə narkotik vasitə bağlamaları aşkarlanıb

**Azərbaycanın İran ilə sərhədində gizlədilmiş külli miqdarda narkotik aşkarlanıb.**



Külli miqdarda narkotik vasitələrin qaçaqmalçılığı və qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən keçirilmiş birgə əməliyyat-axtarış tədbirləri zamanı Azərbaycanın İranla dövlət sərhədinin Beyləqan rayonundan keçən hissəsində gizli saxlanc yerində gizlədilmiş külli miqdarda narkotik vasitələri götürərkən 1989-cu il təvəllüdlü Hüseynov Asif Vaqif oğlu saxlanılıb.

A.Hüseynovun əldə etdiyi 3 ədəd bağlamaya keçirilmiş baxış zamanı oradan 26 kiloqrama yaxın qurudulmuş marixuana və 2 min 520 ədəd narkotik tərkibli M40 "Metadon" həbləri aşkar edilərək götürülüb.

Hazırda əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***XQ***


# "Səba" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-1-ci maddəsinə müvafiq olaraq 18 noyabr 2025-ci il saat 15:00-da Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda "Səba" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

**1. "Səba" ASC-nin yeni redaksiyada nizamnaməsi haqqında**

**2. "Səba" ASC-nin direktorlar şurası haqqında**

**3. "Qarabağ Taxıl" MMC-nin (VÖEN: 5000268351) "Səba" ASC-yə qoşulması haqqında**

**4. "Biləsuvar Aqro" MMC-nin (VÖEN: 4100179981) "Səba" ASC-yə qoşulması haqqında**

**5. "Səba" ASC-də dividendlərin elan edilməsi haqqında.**

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar ümumi yığıncağın gündəliyinin layihəsinə aid təkliflər vermək və ümumi yığıncağa 15 (on beş) gün qalmış gündəliyə daxil edilmiş bütün məsələlər üzrə müvafiq sənədlərlə AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda yerləşən cəmiyyətin ofisində tanış olmaq hüququna malikdirlər.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiqləyən sənəd və nümayəndənin səlahiyyətləri barədə etibarnamə təqdim etməlidirlər.

**Əlaqə telefonları:**
(+99450) 201 20 15 – direktor
(+99455) 215 08 60 – hüquqşünas

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60.

***"Səba" ASC-nin direktoru***
***Vüqar Baloğlanov***


*HAVA*

## Bakıda çiskin, bəzi rayonlarda leysan və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 15-dən 16-na keçən gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 14-17, gündüz 19-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 767 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi şərq rayonlarında, axşama doğru isə əksər rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 10-15, gündüz 20-25, dağlarda gecə 2-6, gündüz 8-13 dərəcə isti olacaq.

***XQ***

## Payızda güclü günəş alışmaları



**Rusiya Elmlər Akademiyasının Kosmik Tədqiqatlar İnstitutunun günəş astronomiyası laboratoriyasının məlumatına görə, dünən günəş məşəllərinin fəallığı indeksi iyun ayından bəri ilk dəfə olaraq 10 ballıq şkala üzrə qırmızı 8 səviyyəsinə çatıb.**

Günün əvvəlindən elm adamları 11 alışma qeydə alıb. Onlardan ikisi M səviyyəsində olub. Moskva vaxtı ilə saat 12:00-da məşəllərin fəallığı indeksi qırmızı səviyyəni keçib.

Alimlərin fikrincə, sürətlə genişlənən günəş ləkələri və getdikcə mürəkkəbləşən maqnit konfiqurasiyaları fonunda oktyabrın 14-ü axşam fəallıq kəskin artıb. Buna görə də mütəxəssislər cümə günündən bazar gününə kimi güclü maqnit fırtınaları və intensiv qütb parıltıları proqnozlaşdırırlar.

Bundan əvvəl məlumat verilmişdi ki, oktyabrın 12-də Yer Günəşdə başqa bir tac dəliyinin təsirinə məruz qala bilər və bu, maqnit qasırğasına səbəb olacaqdır.

***Qabil ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Konstitusiya Məhkəməsi Aparatının məsul əməkdaşı Emin Quliyevə atası, Xalq artisti, professor

**RAMİZ QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Xalq artisti, professor

**RAMİZ QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3508
SİFARİŞ 1952
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
TAHİR AYDINOĞLU
Çapa imzalanmışdır 00:00